

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## İşıqlı gələcəyə aparan xoş niyyət və əməllər!



3

# Qətiyyətin zirvəsi - Qarabağ Azərbaycandır!



2


№ 114 (6797)

SƏS

4 iyul 2023-cü il.
Qiyməti 60 qəpik


İLHAM ƏLİYEV: "Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: "Qarabağ Azərbaycandır!"

# Fransada söz azadlığı: qürubа doğru...

AzTV-nin əməkdaşlarına hücum dünya ictimaiyyəti tərəfindən pislənilir



5

## Sel və daşqınların fəsadlarının aradan qaldırılması ilə bağlı müşavirə keçirilib



5

## Erməni terroru: danışan faktlar və sənədlər



6

## Çimərliklərdə təhlükəsizlik necə təmin olunur?



7



15

## Uşaqlar bizi bağışlamayacaq

## Qızlar, diqqətli olun!



10

# Qətiyyətin zirvəsi - Qarabağ Azərbaycandır!

## İLHAM ƏLİYEV: "Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: "Qarabağ Azərbaycandır!"

İyunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı regionda proseslərin yenə də bizim təkliflərimiz əsasında cərəyan etdiyini diqqətə çatdıran Ali Baş Komandan müharibədən sonrakı ilk aylarda Ermənistanın havadarlarının köhnə tezisləri qəbul etdirməyə çalışdıqlarını bildirərək deyib: ”Biz isə bunu qətiyyətlə rədd etdik. Bu gün hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə ”Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: ”Qarabağ Azərbaycandır!” Yəni, bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir”.

### AZƏRBAYCAN PREZİDENTİ ERMƏNİSTANLA SÜLH MÜQAVİLƏSİ ÜÇÜN ŞƏRTLƏRİ BİR DAHA XATIRLATDI

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı Ermənistanla sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın şərtlərini bir daha xatırladıb. Ermənistanın keçən ilin oktyabr ayında Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını, ötən ay isə hətta ölkəmizin ərazisinin parametrlərinin qeyd olunduğunu bildirən dövlətimizin başçısı həmin bu ifadələrin kağız üzərində də olmasının və Ermənistan buna imza atmasının zəruriliyini diqqətə çatdırıb. Deyib ki, belə olan halda Cənubi Qafqazda uzunmüddətli sülh yarana bilər. Prezident İlham Əliyev sülh üçün digər mühüm şərtlərin Zəngəzur dəhlizinin açılmasının və Ermənistan ordusunun silahlı birləşmələrinin Qarabağ bölgəsindən çıxarılmasının olduğunu vurğulayıb.

Bəli, 2020-ci il 10 noyabr üçtərəfli bəyanatla Azərbaycan Prezidenti İlham Əliyev yenə də diktə edən tərəfdir. Azərbaycan Prezidenti haqlı olaraq dəfələrlə bəyan edir ki, mövcud durumda situasiyanı Azərbaycan müəyyənləşdirir. Çünki bu gün şərtləri qalib ölkənin qalib Lideri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diktə edir: Paşinyan rejiminə güzəşt yoxdur. İllərdir sülh istəyən, humanist siyasət aparan Azərbaycanla artıq kimsə diktə dili ilə danışa bilməz. Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu dünyaya bəyan edib. Ermənistan isə status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. İndi Paşinyan danışıq aparmaq üçün açıq-aşkar yalvarır. Ancaq Azərbaycan Prezidenti onunla nəinki bir masada oturmaq, heç danışıq aparmaq belə istəmir. Çünki danışıqlara Paşinyanın ”Qarabağ Ermənistanındır” sərsəm fikrindən sonra xitam verilib.

Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmaqla bir daha riyakarlığını nümayiş etdirdisə, Azərbaycan dövləti də haqq yolunda, Vətən yolunda mübarizə apardığını, erməni hiyləsinin, riyakarlığını, normal dövlət ola bilməməsini bir daha dünyaya nümayiş etdirdi. Bununla bir daha sübut olundu ki, humanitar məqsədə xidmət edən atəşkəslə yanaşı, ehtiyat tədbirləri də paralel aparılmalıdır. Artıq atəşkəs danışıqlarında, digər ikitərəfli, çoxtərəfli platformalarda şərtləri məhz Azərbaycan müəyyən edir. Bu, o deməkdir ki, Azərbaycana qarşı hər hansı şərtlərin irəli sürülməsindən söhbət gedə bilməz və atəşkəs istəyən tərəf beynəlxalq hüquq normalarına əməl etməlidir. Bu sadə gerçəkliyi artıq hamı başa düşməlidir.



Paşinyan başa düşməlidir ki, monoetnik Ermənistandan fərqli olaraq, multikultural dəyərlərə, tolerantlığa və hər bir xalqın milli-mədəni irsinə hörmət prinsiplərinə sadiqdir. Prezident və Ali Baş Komandan İlham Əliyev Şuşadan regiona və dünyaya etdiyi çağırışları bir daha onu sübut edir ki, Azərbaycan Prezidenti rəhbəri olduğu ölkə bölgənin təhlükəsizliyi, sabitliyi və inkişafı üçün sülhə hazır olmaqla bərabər, həm də sülhün təminatçısı kimi çıxış etmək iqtidarındadır. 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi bunun təsdiqidir.

### ”BU GÜN BİZİM İRADƏMİZƏ HEÇ KİM TƏSİR EDƏ BİLMƏZ”

”Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz”. Bu barədə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı bildirib.

”Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün təbii ki, heç kim təsir edə bilməz”, - deyən dövlətimizin başçısı bir daha bildirib ki, biz haqq-ədaləti tələb edirik.

### ”AZƏRBAYCANIN MÖVQEYİ BİRMƏNALIDIR, AÇIQDIR. AZƏRBAYCAN HAQQIN, ƏDALƏTİN TƏRƏFDARIDIR”

Bəli, dövlət başçımızın söylədiyi kimi, bu gün Azərbaycanın mövqeyi birmənalıdır, açıqdır, haqqın, ədalətin tərəfdarıdır. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı onu da bildirib ki, bu gün bizi qisasçılıqda ittiham edənlər qoy gedib güzgüyə baxsınlar: ”Ermənistandan fərqli olaraq onların şəhərlərini ”İsgəndər”, ”Toçka” və ”Elbrus” raketləri ilə dağıtmamışıq. Azərbaycan Ordusu yüksək mənəvi xüsusiyyətlərə malikdir”.

Çünki sözü ilə əməli üst-üstə düşən Qalib ölkənin Qalib Lideri, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 30 illik Qarabağ torpaqlarını vəhşi, işğalçı Ermənistanın əsarətində ”Dəmir Yumruq” siyasətinə tabe olan Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gündə son qoydu və dövlət başçımızın söylədiyi kimi: ”İkinci Qarabağ müharibəsindən sonra bölgədə gündəliyi müəyyən edən yenə də biz olduq”.

Bu gün regionda proseslərin yenə də bizim təkliflərimiz əsasında cərəyan etdiyini diqqətə çatdıran Ali Baş Komandan müharibədən sonrakı ilk aylarda Ermənistanın havadarlarının köhnə tezisləri qəbul etdirməyə çalışdıqlarını bildirərək deyib: ”Biz isə bunu qətiyyətlə rədd etdik. Bu gün hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə ”Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: ”Qarabağ Azərbaycandır!” Yəni, bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir”.

### ”ERMƏNİSTAN ÖZ İMZASINA HÖRMƏT ETMƏSƏ NƏTİCƏ ONLAR ÜÇÜN ACINACAQLI OLACAQ”

Son iki il yarım ərzində biz bir neçə dəfə məcbur olub Ermənistan tərəfinə öz gücümüzü göstərmişik, birincisi, onların hərbi təxribatlarına cavab olaraq. İkincisi, onlara bir siqnal göndərmişik ki, özlərini yaxşı aparmasalar, öz imzalarına hörmət etməsələr nəticə onlar üçün acınacaqlı olacaq”. Bunu iyunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı deyib. ”Ona görə hələ də özümüzü təmkinlə aparırıq. Biz heç vaxt tələskənliyə yol verməmişik, buna ehtiyac yoxdur. Bu gün güc də bizim tərəfimizdədir, zaman da bizim mövqeyimizi gücləndirir, beynəlxalq hüquq da. Dünya ictimaiyyəti artıq birmənalı şəkildə Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz gözləyə bilərik. Yenə də deyirəm, biz tələsmirik”, - deyə dövlətimizin başçısı bildirib.

Bəli, qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Məhz buna görə də sözü ilə əməli üst-üstə düşən Prezident İlham Əliyev cənabları ”Dəmir Yumruq” siyasəti ilə 30 illik Qarabağ həsrətinə cəmi 44 gün bəs etdi. Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı ilə ”Qarabağ Azərbaycandır”ımıza qovuşdu. Dövlət başçısı bütün çıxışlarında, görüşlərində dönə-dönə vurğulayıb ki, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Bəli, artıq bütün dünya ictimaiyyəti açıq dərk edir ki, Qarabağ Azərbaycandır!

### ”MÜSTƏQİLLİK XÜLYASI STATUSUN DALINCA GETDİ. STATUSU İSƏ BİZ HƏLƏ İKİNCİ QARABAĞ MÜHARİBƏSİ ZAMANI GÖNDƏRMİŞİK LAZIM OLAN YERƏ”

İyunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı onu da vurğulayıb ki, iki il yarım ərzində bütün planlarımız ardıcıllıqla, tədricən həyata keçdi və biz öz planlarımızın son addımlığındayıq, o addım da atılacaq və buna mən şübhə etmirəm: ”Buradan - uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. ”Miatsum” kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, ”parlament”i buraxmaq”.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı deyib ki, işğal dövründə şəhərlərimizin yerlə-yeksan edildiyini, tarixi abidələrimizin dağıdıldığını, müqəddəs ocaqlarımızın təhqir olunduğunu və dağıdıldığını xatırladaraq bildirib: ”Bunu edən bizim mənfur qonşularımız idi. Buna göz yuman beynəlxalq aləm, beynəlxalq ictimaiyyət və indi hər gün Ermənistana baş çəkən rüşvətxor Avropa məmurları və deputatlarıdır. Onları bu ədalətsizliyə vadar edən nədir? İkili standartlar və rüşvət! Bunun başqa izahatı ola bilməz”.

Lakin bu gün işğalçı Ermənistan bütün bunlardan sonra düzgün addım atmalıdır. Dövlət başçımızın söylədiyi kimi: ”Bu gün biz öz şanlı Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirdik. Bu gün biz bölgədə söz sahibiyik”. Beləliklə, bu gün Azərbaycan bölgədə davamlı sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, gücü iradəsi və qətiyyəti, nəhayət diplmatik siyasətinin reallığıdır.

**RƏFİQƏ KAMALQIZI**

# İşıqlı gələcəyə aparan xoş niyyət və əməllər!

## Leyla Əliyeva: "İşimizlə, ümidlə, inamla, nəzakətlə və sevgi ilə biz bütün problemləri həll edə və daha parlaq gələcək qura bilərik"

Yaradıcı qələmə, düşüncəyə sahib olmaq, ictimai fəaliyyəti ilə nümunəyə çevrilmək, zərif qəlb, zərif hisslərlə böyük əməllərə imza atmaq daxili aləminin zənginliyinin ifadəsi olmaqla yanaşı, istedadlı bir ziyalı olduğunu da büruzə verir. Əlbəttə ki, əməl və istedad vətənə sevgi ilə köklənmiş hisslərin vəhdətində daha mükəmməl bir şəkildə özünü ortaya qoymuş olur. Fəal sosial və ictimai fəaliyyəti ilə yanaşı, yaradıcılıq sahəsində də geniş coğrafi məkanda tanınan Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya nümayəndəliyinin rəhbəri, "Baku" jurnalının təsisçisi, "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarı, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyeva qısa bir zaman məsafəsində yaşıdlarına örnək olaraq öz isminin ətrafında ən gözəl ifadələri cəm edərək cəmiyyət üçün nə qədər faydalı olan işlərin müəllifi olduğunu göstərə bilib. "Düşünürəm ki, nəyəsə inanırsan və nəyisə çox arzulayırsansa, ona nail olacaqsan", - deyən Leyla Əliyeva inam və arzularını gercəkləşdirib. Təbii ki, arzu tükənməz bir hissdir və insan var olduqca arzuları tükənmək bilmir. Fəaliyyəti ilə gənclərə, yaşıdlarına örnək olan Leyla xanım öz düşüncəsi, intellektual səviyyəsi ilə nümunəyə çevrilərək, məsuliyyət anlayışını unutmur. Ən müqəddəs məfhumlar qarşısında: ata, ana, vətən qarşısında olan müqəddəs borcun yerinə yetirilməsi, reallaşması insana nə qədər xoşbəxtlik hissini yaşadır. Təbii ki, müqəddəs borc və vəzifələrin yerinə yetirilməsində ailədə, cəmiyyətdə insanın necə formalaşması önəmlidir.

"İşimizlə, ümidlə, inamla, nəzakətlə və sevgi ilə biz bütün problemləri həll edə və daha parlaq gələcək qura bilərik", - deyir Leyla Əliyeva. Çox gənc yaşından böyük məsuliyyətləri üzərinə götürmək cəsarət və potensil, istedad tələb edir ki, Leyla xanım bu keyfiyyətləri özündə hiss etmiş, görmüşdü. Axı kiçik yaşlarından doğulduğun mühit səni gələcəyə doğru addımında önəmli faktordur. Ulu Öndər Heydər Əliyev kimi müdrik Şəxsiyyətin ailəsində böyüyən və bu nəslin təmsilçisi olan Leyla xanım öz əməli fəaliyyəti ilə seçilməli idi. Prinsipial mövqeyini ortaya qoymalı idi. Müsahibələrinin birində ona verilən "Heydər Əliyev həyatınızda sizə ən çox kömək olan hansı məsləhəti vermişdi" sualına "Mən indi başa düşürəm ki, nə qədər böyük bir İnsana yaxın olmuşam və nə qədər böyük bir İnsanla söhbətlərim olub", - deyə cavab vermişdi. "Hətta Onunla beş dəqiqə söhbət edənlər belə Ondan çox qiymətli dərs ala bilirdilər", - deyən Leyla xanım bildirib ki, Onu hər gün görürdüm: "Bu, heç nə ilə müqayisə olunmayacaq böyük təcrübə idi. Ən təəccüblüsü də bu idi. O, heç vaxt sənin nə etməli olduğunu demirdi, istəyirdi ki, sən həmişə özün qərar qəbul edəsən". Əlbəttə ki, bu fikirlər bir daha göstərir ki, Leyla xanımın həyat məktəbinin təməli doğulduğu mühitdə qoyulub. Bu mühit onu gələcəyə doğru inamla aparıb.







### "ƏGƏR FAYDA VERƏ BİLƏCƏK BİR İŞ GÖRMƏYƏ İMKAN VARSA, MƏN HƏMİN İMKANDAN MƏMNUNİYYƏTLƏ İSTİFADƏ EDİRƏM"

Təbii ki, Leyla xanımın yetişdiyi mühit qısa bir zamanda onun uğurlar qazanmasına səbəb oldu. Onun tərcümeyi-halına nəzər salsaq bunun şahidi olaraq. Belə ki, 3 iyul 1984-cü ildə anadan olan Leyla Əliyeva orta məktəbi bitirdikdən sonra Avropa Biznes Məktəbinə (ESB) daxil olub. İsveçrə və Böyük Britaniyada təhsil aldıqdan sonra 2006-2008-ci illərdə Rusiyada Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda politologiya fakültəsində dünya siyasəti üzrə magistr təhsili alıb. Tələbəlik illərindən başlayaraq Leyla xanım Əliyeva ictimai fəaliyyət ilə məşğul olub. 10 may 2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəridir. Elə həmin il dekabrın 19-da Moskvada "Baku" jurnalını təsis edib. 2008-ci il mayın 8-dən start götürmüş "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarıdır. 2008-ci ilin mayından İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş koordinatoru vəzifəsinə təyin olunub. 2009-cu il aprelin 18-də Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri vəzifəsinə seçilib. 2010-ci ilə qədər MQİMO-da Azərbaycanlılar Klubunun sədri olub. 2011-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti vəzifəsini icra edir. Həyata keçirdiyi layihələrin hər birində böyük ideyalar dayanır. "Əgər fayda verə biləcək bir iş görməyə imkan varsa, mən həmin imkandan məmnuniyyətlə istifadə edirəm", Leyla xanım deyir.

### "BİR PLANET - BİR GƏLƏCƏK"

Müasir dünyamızı narahat edən məsələlər sırasında ətraf mühitin, planetimizin qorunması yer alır. Beynəlxalq ictimaiyyət, siyasi və elmi dairələr ətraf mühitlə bağlı problemlərin həllində maraqlıdırlar. Dünyada yaşayan insanlar ekoloji problemlərə xüsusi önəm verərək planetimizə görə məsuliyyət daşıyırlar. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri, Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq kampaniyasının təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr sırasında planetimiz üçün əhəmiyyətli olan amillər də diqqətdə saxlanılır. Leyla Əliyeva IDEA İctimai Birliyinin sədri olaraq təbiətin qorunması istiqamətində bir sıra layihələrə imza atıb. İDEA ətraf mühit kampaniyası regionda ətraf mühit məsələləri ilə məşğul olan ən böyük təşkilatdır. Bu kampaniya çərçivəsində BMT İnkişaf Proqramı ilə saziş imzalanıb, Qəbələdə gənc ekoloqlar üçün beynəlxalq düşərgə keçirilib.

Müasir dövrümüzdə ekologiya və ətraf mühitin qorunması vacib məsələlərdən olduğundan, ekoloji problemlərin nəticələri diqqətdədir. Leyla xanım Əliyevanın, müsahibələrinin birində dediyi kimi, biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa, hamısının qorunub- saxlanmasına birgə töhfə verməliyik. "Hər bir insan təbiəti sevməli və ona qayğı göstərməlidir", - deyir Leyla Əliyeva. Təbiəti sevməməyin mümkün olmadığı qənaətindədir: "İnsan və təbiət malik olduğumuz ən dəyərli nemətlərdir". Belə prinsiplə ekolji mühitin qorunmasına çalışaraq kifayət qədər layihələrin müəllifinə çevrilib. Bu, "Bir planet - bir gələcək" devizini bir daha təsdiq edir. İDEA Azərbaycanda "Böyük Qafqaz beşliyi" deyilən, yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növünü müəyyən edib. "Biz məhv olmaq təhlükəsi ilə üzləşən heyvanların yox olmasının qarşısını almağa çalışırıq", deyərək ovçuluğun bütün dünyada mövcudluğunu dilə gətirib: "Bu, qəbul ediləndir və bəzən hətta faydalıdır. Lakin adları "Qırmızı kitab"a daxil olan heyvanlar öldürülməməlidir, onlar qorunmalıdır. Bunun üçün biz fəal təbliğat işi aparırıq, izah edirik, danışırıq. Ən başlıcası bu haqda düşünməkdir. Ceyranların reproduksiyası ilə bağlı bizim layihələrimiz olub. Mənim üçün ən vacib layihələrdən biri də Qafqaz bəbirinin qorunub saxlanmasıdır".

Ardı Səh. 4

# İşıqlı gələcəyə aparan xoş niyyət və əməllər!

Leyla Əliyeva: "İşimizlə, ümidlə, inamla, nəzakətlə və sevgi ilə biz bütün problemləri həll edə və daha parlaq gələcək qura bilərik"







Əvvəli Səh.3

## "DAHA YAŞIL BİR AZƏRBAYCAN ÜÇÜN BİZƏ KÖMƏK ET!"

eyla Əliyeva çıxışlarının birində bildirib ki, dünyanın müxtəlif hissələrində iqlim dəyişikliyi, karbon qazı tullantılarının artması, atmosferə atılan istixana qazlarının artımı, okean dəyişkənlikləri, quraqlıqlar və digər humanitar problemlərdən əmələ gələn ekoloji problemlərə gənc nəsil laqeyd qala bilməz. Heydər Əliyev Fondunun vitse-prezidentinin təşəbbüsü ilə yerli və beynəlxalq tərəfdaşlarla birgə mütəmadi olaraq Azərbaycan və regionun su bioresurslarının qorunub saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edilir. IDEA İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən sahilyanı təmizlik aksiyaları dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etmək idi. "Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası böyük əhəmiyyətə malikdir.

IDEA İctimai Birliyinin təşkilatçılığı ilə "Bizim həyət" layihəsi reallaşıb. Layihənin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Leyla xanım Əliyeva çıxışlarının birində bildirib ki, bu məsələləri hələ sinif otaqlarından tədris etmək lazımdır. Təbii ki, təmiz ətraf mühit təmiz və saf cəmiyyətdən başlayır. Bu baxımdan, insanlara belə fikirləri aşılamaq lazımdır. "Təbiətin gözləmək üçün vaxtı yoxdur. Biz bunu indi etməliyik", - deyən Leyla Əliyeva hər bir insanın ətraf mühitin qorunub saxlanılmasına töhfə verə biləcəyinə əminliyini ifadə edib. Yaşıllıqların şəhər ətrafındakı insanların sosial həyatı və sağlamlığı üçün faydasını nəzər alaraq, Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən Bakının abadlaşdırmaya ehtiyacı olan həyətləri, parkları və meydançaların bərpasına, yaxşılaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi həyata keçirilir. Layihə başlayandan etibarən vətəndaşların müraciətləri nəzərə alınaraq tədbirlər həyata keçirilir. İnsanların abad yerdə, açıq havada vaxt keçirməsinə şərait yaratmağa öz töhfəsini verir. Paytaxtımızın bir çox yerlərində abadlaşan həyətlər insanların rahatlığının və istirahətinin təminatından mühüm əhəmiyyətə malikdir. Nərimanov, Yasamal, Binəqədi kimi rayonlarının bəzi yerlərində "Bizim həyət" layihəsi çərçivəsində həyətlər abadlaşıb. Abadlaşdırılan həyətlərdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazilərdə söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılması üçün görülən işləri insanlar məmnunluqla qarşılayırlar. Əlbəttə ki, görülən işlər ətraf mühitin təmizlənməsinə, ekoloji təmizliyə xidmət edir. Leyla Əliyeva fəaliyyətində ətraf mühitin mühafizəsinə, planetimizin üzləşdiyi ekoloji təhlükənin aradan qaldırılmasına davamlı olaraq töhfələr verir. İDEA-nın reallaşdırdığı layihələr sırasında "Daha yaşıl bir Azərbaycan üçün bizə kömək et!" devizi ilə ağacəkmə aksiyası çərçivəsində çoxlu sayda eldar şamı, kiparis, şərq çinarı və digər ağaclar əkilib.

## RAGT - XALQLARIN, İNSANLARIN QARŞILIQLI SEVGİSİ

Rusiyanın azərbaycanlı gənclərinin təşkilatlanmasında Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) xüsusi rolu var. RAGT yarandığı gündən özünü müasir cəmiyyətin işgüzar və lazımlı strukturu kimi təqdim edir və Azərbaycanın məxsus olduğu dəyərlər Rusiyada nümayiş olunur. Rusiyanın bir sıra şəhərlərində azərbaycanlı gənclər klubları fəaliyyətdədir. Belə ki, Moskvada, Sankt-Peterburqda, Arxangelsk, Tver, İvanov, Yekaterinburq və digər regionlarda yerləşən təşkilatlar gənclərin həyatının bütün istiqamətlərini əhatə edir. Təhsil, idmanla yanaşı, RAGT sağlamlığa və sağlam həyat tərzinə də böyük diqqət ayırır. "Qanının milləti yoxdur" aksiyası çərçivəsində qurum könüllüləri ehtiyacı olan bütün şəxslərə təmənnasız qan veriblər. RAGT, həmçinin, "Sağlamlığına əmin ol - xəstəliyə "YOX" de" aksiyasının təşkilatçısıdır.

Gördüyü işlər və həyata keçirilən layihələr nəticəsində RAGT-ın fəaliyyəti və onun rəhbəri Leyla Əliyevanın təşkilatçılıq istedadı yüksək qiymətləndirilir. Qurum sivilizasiyaların və mədəniyyətlərin yaxınlaşmasına, beynəlxalq gənclər dialoquna, habelə, Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə müsbət töhfələrini verir. Hər bir işin əsasında ən əsası səmimi, saf və insani münasibətlər dayanır. Leyla xanım müsahibələrinin birində onun bu qədər fəal, uğurlu təşkilat olacağını gözləmədiyini bildirmişdi: "RAGT Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatıdır. Amma bu, eyni zamanda həm də sevgi - xalqların, insanların qarşılıqlı sevgisi deməkdir. Həqiqətən də, azərbaycanlı gəncləri bir araya gətirmək, onların Rusiya cəmiyyətinə inteqrasiyasına və Azərbaycan mədəniyyətini Rusiyada layiqincə təmsil etməsinə köməklik göstərmək mümkün oldu". Onu da qeyd etmişdir ki, biz, gənclər fəal insanlarıq: "İstəyirik ki, yaşıdlarımız arasında bizə tələbat, ehtiyac olduğunu dərk etməklə yanaşı, həm də özümüzü cəmiyyətə, ölkəyə, dünyaya faydalı insanlar kimi hiss edək. Bu sözlər bir qədər gurultulu və pafoslu səslənsə də, təşkilatın yaradılması ideyası bu cür əmələ gəlmişdir".

## AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİ DÜNYAYA ÇATDIRAN ZİYALI ƏMƏLİ

Azərbaycanın milli-mənəvi dəyərlərini təbliğ etmək, Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini, xalqımızın qəhrəmanlıq tarixini, onun coğrafi-ərazisini tanıtmaq baxımından həyata keçirdiyi layihələr həmişə yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardımçı olan nümayəndəlik Azərbaycan həqiqətlərini dünyaya çatdırılmasında bir vasitəçi və ötürücü oldu. "Xocalıya ədalət" kampaniyası çərçivəsində dünya ölkələrində soyqırımına həsr olunmuş silsilə tədbirləri reallaşdırdı. Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" rep üslubunda yazılmış mahnı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bir vasitə oldu. Bu gün onun təşəbbüsü ilə Koreya dilində Xocalı soyqırımı haqqında sayt fəaliyyət göstərir. Saytda Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin yaranma səbəbləri, 1992-ci ilin fevralında Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərində mülki əhaliyə qarşı törətdiyi soyqırımına aid məlumatlar, foto və videomateriallar yerləşdirilib. "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası çərçivəsində görülmüş işlər nəticəsində dünyanın bir sıra ölkələrində və ABŞ-ın ştatlarında Xocalı qətliamı soyqırımı kimi tanınıb. Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerikanın onlarla ölkəsində faciə ilə əlaqədar tədbirlər keçirilib. Tədbirlər çərçivəsində müxtəlif ölkələrin parlamentləri və dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər, habelə seminarlar, konfranslar keçirilib, kitablar nəşr olunub, filmlər çəkilib. "Xocalıya ədalət" kampaniyası sayəsində Xocalı faciəsi bir sıra dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Eyni zamanda, faciə qurbanlarının xatirəsinə abidələr ucaldılıb.

Leyla xanımın gördüyü böyük işlər diqqətdən kənarda qalmayıb. 2011-ci ilin iyulunda Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub. 2011-ci ilin noyabrında Nyu-Yorkda humanitar aksiyalarda fəal iştirakına görə, "Key to life" fəxri mükafatına layiq görülüb. 22 noyabr 2011-ci ildə BMT-nin sertifikatını və xüsusi vəsiqəsini alıb. 2013-cü ildə Ətraf Mühitin Mühafizəsi VII Beynəlxalq Layihə Olimpiadası (İNEPO-Avrasiya) Təşkilat Komitəsinin idarə heyəti tərəfindən "Ekoloji Mühitin Qorunmasına Görə" xüsusi Beynəlxalq Şərəf Mükafatı ilə mükafatlandırılıb. Həmin il Leyla Əliyeva III dərəcəli "Knyaginya Olqa" ordeni və "Volqoqrad vilayəti qarşısında xidmətlərə görə" medalı ilə təltif olunub. 2015-ci ilin mayında Leyla Əliyeva aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılması, sağlam ərzaq sistemlərinin yaradılması kimi məqsədlərə nail olunmasına verdiyi töhfəyə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Xoşməramlı Səfiri adına layiq görülüb. 2015-ci il oktyabrın 20-də Rusiya Federasiyasının "Puşkin" medalı ilə təltif edilib. 2016-cı il sentyabrın 28-də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Elmi Şurasının qərarı ilə bu ali məktəbin "Xidmətlərə görə" medalına layiq görülüb. Bu mükafatların sayı kifayət qədərdir. Hər biri də əməli fəaliyyətin qiymətidir.

## "ANADAN OLANDAN İNSANA DOĞRUNU VƏ YANLIŞI ANLAMA QABİLİYYƏTİ ALLAH TƏRƏFİNDƏN VERİLİB"

Gördüyü işlərdən usanmır, rəsm əsərləri, şeirləri onun mənəvi dünyası ilə söhbətidir, desək yanılmarıq. "Həqiqətən də rəsm çəkmək böyük həzz deməkdir. Çünki bu iş insanı sakitləşdirir - nəticə isə uğurlu ola da bilər, olmaya da. Mən bəzən yarım il heç nə çəkməyə, lakin ay ərzində beş-altı rəsm əsəri ortaya qoya bilərəm. Rəsm çəkməyə başladıqda isə bu işdən əl çəkmək, sadəcə mümkün olmur, başqa bir işlə məşğul olmaq çox çətindir. Yəqin ki, bu işlə məşğul olan hər kəs eyni hissləri keçirir. Bir sözlə, bu, böyük bir həzz deməkdir. Ancaq uğurlu alınmırsa, onda ilham pərisini gözləmək lazım gəlir", - deyir Leyla Əliyeva. İşinin gərgin olmasına baxmayaraq, ailəsinə də diqqət ayırmağı arxa plana salmır. "Mənim üçün övladlarım və ailəm hər şeydən vacibdir", deyir Leyla Əliyeva. Aldığı dərsi öz övladlarına ötürməyi diqqətdə saxlayır: "Mən övladlarıma valideynlərimin mənə verdiklərini vermək istəyirəm. İstəyirəm ki, onlar daim məhəbbət və qayğı içində böyüsünlər. Bu, ən vacibdir. Dünyanın müxtəlif ölkələrinə saysız-hesabsız səfərlər etməli oluram. Bu zaman övladlarımı da özümlə aparıram. Ona görə də darıxmıram. Vaxtı isə tapmaq mümkündür. Əsas odur ki, hamı sağlam olsun".

Müsahibələrin birində Ona ünvanlanan "Uşaqlıqdan öyrədilməsi zəruri olan tərbiyənin və təhsilin əsasları hansılardır?" sualına gəlincə isə Leyla Əliyeva belə cavablandırıb: "Mənim üçün olduqca vacibdir ki, uşaqlar valideynlərinə ilk növbədə hörmət etsinlər, onlardan qorxmasınlar. Buna görə də uşaqlar nəyisə düz etməyəndə onlara izah etməyə çalışıram. Həmişə seçim ixtiyarı verirəm. Hesab edirəm ki, onlara kifayət qədər çox azadlıq vermək lazımdır. Fikrimcə, anadan olandan insana doğrunu və yanlışı anlama qabiliyyəti Allah tərəfindən verilib. Bəzən valideynlər uşaqları qorumaq üçün onları həddən artıq himayə edirlər, məhdudiyyətlər və qadağalar qoyurlar. Mən onlara daha çox azadlıq verməyə çalışıram, xüsusən də onlar oğlan olduqları üçün. Qoy onlar müstəqil, sərbəst və güclü olsunlar".

*Nəzakət ƏLƏDDİNQIZI*





# Sel və daşqınların fəsadlarının aradan qaldırılması ilə bağlı müşavirə keçirilib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə iyulun 3-də son günlər ölkəmizdə baş verən sel və daşqın hadisələrinin fəsadlarının aradan qaldırılmasına həsr olunmuş müşavirə keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəni açan Baş nazir Ə.Əsədov ötən illərdən fərqli olaraq cari ilin may-iyun aylarında ölkəmizin bəzi rayonlarında hava şəraitinin qeyri-sabit keçdiyini, yağıntıların miqdarının artdığını, əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, əsasən iyun ayında respublikanın əksər ərazilərində çaylara sel sularının daxil olması nəticəsində bir sıra çaylarda sululuq artıb, sel və daşqınlar baş verib.

Təbii fəlakət baş verən rayonlar üzrə aidiyyəti qurumlar tərəfindən zəruri və təxirəsalınmaz tədbirlər görülüb, ərazilərə xüsusi texnika və canlı qüvvə cəlb olunub. Görülmüş işlər nəticəsində operativ olaraq çayların məcrası dəyişdirilib, yuyularaq dağıdılan yol infrastrukturu bərpa olunub.

Bildirilib ki, təbii fəlakət nəticəsində fərdi yaşayış evlərinə, həyətyanı sahələrə, həmçinin əkin sahələrinə və fermer təsərrüfatlarına, eyni zamanda, digər infrastruktura dəymiş ziyanın qiymətləndirilməsi ilə bağlı tədbirlər davam etdirilir.

Müşavirədə sel və daşqınların fəsadlarının aradan qaldırılması üçün görülən işlər barədə məruzələr dinlənilib, müzakirələr aparılıb. Baş nazir Ə.Əsədov bu istiqamətdə zəruri və operativ tədbirlərin davam etdirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verib.

Eyni zamanda, qeyri-sabit hava şəraiti ilə əlaqədar Milli Hidrometeorologiya Xidməti tərəfindən tətbiq edilən erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsinin vacibliyi vurğulanıb. Təbii fəlakətin qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin görülməsi baxımından xidmətin fəaliyyətinin digər aidiyyəti qurumlarla əlaqələndirilmiş şəkildə həyata keçirilməsinin önəmi qeyd edilib.

**BAXIŞ BUCAĞI**



# Fransada söz azadlığı: qüruba doğru...

## AzTV-nin əməkdaşlarına hücum dünya ictimaiyyəti tərəfindən pislənilir

Fransa hakimiyyəti Makronun rəhbərliyi altında Avropada neonasizmi yeni formada tətbiq etməyə başlayıb. Nanter şəhərində polisin 17 yaşlı Əlcəzair əsilli yeniyetməni sadəcə polisə tabe olmadığı və bundan artıq hüquq-mühafizə orqanlarına təhlükə yaratmadığı bir şəraitdə qətlə yetirilməsi bu ölkədə insan haqlarına, sərbəst toplaşmaq hüququna dəyər verilmədiyini sübuta yetirdi. Bütün baş verənlər göstərir ki, yeniyetmə məhz irqi zəmində öldürülüb. Bununla da Makron hakimiyyətinin "Qoca qitə"də insan haqları hədəflərini heçə saydığını görə bilərik. Polisin gənci tutması üçün əlində müxtəlif imkanlar olduğu halda onu soyuqqanlılıqla qətlə yetirməsi vəhşilikdir və bunu heç nə ilə əsaslandırmaq olmaz. Amma biz nə görürük? Beynəlxalq insan haqları təsisatları susur, ixtisaslaşmış təşkilatlar məsələyə hüquqi qiymət vermir və bunula da Makron hakimiyyəti ilə həmrəy olduqlarını, onların cinayətlərinə ortaq olduqlarını sübut edirlər.

Baş verənlər Fransa cəmiyyəti üçün də utancdır. Fransızların əksəriyyəti hadisələrə sükutla yanaşır. Amma bir qismi etirazını iğtişaşlar, barrikadaların qurulması, avtomobillərin, müxtəlif obyektlərin yandırılması kimi büruzə verir. Bu onu göstərir ki, xalqın Makron hakimiyyətinə etimadı qalmayıb və əslində Makron hakimiyyəti laxlayır. Dünyanın hər yerində neokolonist niyyət sərgiləyən Makron Fransada idarəolunmaz bir vəziyyət yaradıb. Ölkədə asayiş, insanların təhlükəsizliyi getdikcə zəifləyir. Bu günlərdə AzTV-nin Fransada çəkiliş aparan əməkdaşlarına hücum olub, xəsarət yetirilib, texnikaları əllərindən alınıb, əməkdaşlar kameranı geri tələb edərkən onları silahla hədələyiblər.

Əlbəttə, Azərbaycan Televiziyasının əməkdaşlarına qarşı Parisdə baş verən hücum qınanılır. Jurnalistika fəaliyyətinə qarşı olan bu əməli törədənlərin tapılması və cəzalandırılması tələb edirir. AzTV əməkdaşlarına hücum Fransada söz azadlığına vurulan ağır zərbədir. Fransa özünü dünyaya demokratik ölkə kimi təqdim edir. Guya bu ölkədə insan haqları zərgər dəqiqliyi ilə qorunur. Qətiyyətlə demək olar ki, demokratiyadan, insan haqlarından, dini və irqi ayrıseçkilikdən danışan ölkələrin ən sonunda Fransa gəlir. Fransa cəmiyyətində Afrika əsilli vətəndaşlara hələ də 5-ci növ insan kimi baxılır. Hələ də kübar fransız ailələrində qul əməyindən istifadə edilir, köləlik Fransa elitasının həyat tərzinə çevrilib. Ağdərili fransızların hüququ qaradərili və yaxud ərəb əsilli Fransa vətəndaşlarından iki pillə irəlidədir.

Azərbaycan Televiziya və Radio Verilişləri (AZTV) Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Televiziyasının müxbiri Kamil Balakişiyevin və operatoru Oqtay Qasımovun iyunun 28-də Fransanın Nanter qəsəbəsində hücuma məruz qaldığını bildirib. "Nəticədə müxbir və operator yüngül bədən xəsarətləri alıblar, çəkiliş kamerası isə əllərindən alınaraq sındırılıb. Əməkdaşlar kameranı geri tələb edərkən onları silahla hədələyiblər. Azərbaycan Televiziya və Radio Verilişləri QSC olaraq baş verənləri şiddətlə qınayır, baş vermiş hadisəni yalnız Azərbaycan jurnalistlərinə deyil, ümumilikdə söz və ifadə azadlığına, azad jurnalistika fəaliyyətinə basqı hesab edirik. Biz Fransanın hüquq mühafizə orqanlarından bu hadisəni obyektiv araşdırmağı, jurnalistlərə silahlı hücum edən şəxslərin müəyyənləşdirilməsini və cəzalandırılmasını, dəymiş zərərin ödənilməsi üçün lazımi tədbirlər görməyi tələb edirik", AZTV-nin yaydığı bəyanatda deyilir.

AZTV-nin İnformasiya Proqramları Studiyasından bildiriblər ki, əməkdaşlar Nanter qəsəbəsindəki aksiya nəticəsində yaranan durumu çəkərkən onlara hücum olub. Hücum edənlər 6-7 nəfər olub. Onlar kameramana hücum edib və onu yerə yıxaraq kameranı zorla əlindən alıblar. Bu zaman əməkdaşlar kameranı qaytarmaq üçün onları təqib edib. Hücumçular tapança ilə əməkdaşları hədələyərək Nanter qəsəbəsini tərk etmələrini tələb edib. Əməkdaşlarımız hücumun soyğunçuluq məqsədi daşımadığı fikrindədir.

Məlumata görə, Azərbaycanın Fransadakı səfirliyi jurnalistlərin hücuma məruz qalmasının araşdırılması məqsədi ilə Nanter qəsəbəsinin polisinə müraciət edib. Fransanın Azərbaycandakı səfiri Ann Buayon (Anne Boillon) tvitter hesabında bildirib ki, Fransada AZTV televiziya komandasına edilən hücuma görə çox təəssüflənir. "Ümid edirəm ki, bu əməlləri törədənlər tutulacaq", səfir qeyd edib.

Hücumla bağlı Azərbaycan Respublikası Audiovizual Şurası da bəyanat yayıb. Bəyanatda deyilir:

"Azərbaycan Respublikası Audiovizual Şurası Fransada peşə borclarını yetirən AzTV televiziya kanalının əməkdaşlarına olunmuş təzyiq və hədələri qətiyyətlə pisləyir, bu faktı söz və media azadlığına təhdid kimi qiymətləndirir. Fransanın müvafiq orqanlarını, habelə beynəlxalq media və jurnalist hüquqları üzrə təşkilatları baş vermiş insidentə hüquqi qiymət verməyə çağırır, gələcəkdə belə hadisələrin təkrarlanmaması üçün yerli hüquq-mühafizə orqanlarından bütün zəruri tədbirləri həyata keçirməyi tələb edirik".

Azərbaycan Mətbuat Şurasının bəyanatında isə deyilir: "AzTV əməkdaşlarının Fransada hücuma məruz qalmasının söz və ifadə azadlığına dözülməz münasibətin nəticəsidir. Fransada peşə borclarını yerinə yetirən jurnalistlərin fəaliyyətlərinin məhdudlaşdırılması, onlara qarşı şiddət halları ilk deyil. AzTV-nin əməkdaşları da belə bir hadisə ilə xidməti vəzifələrini yerinə yetirərkən - çəkiliş apararkən üzləşiblər. Müxbir və operator yüngül bədən xəsarətləri alıblar, eyni zamanda onların çəkiliş kameraları əllərindən alınıb. Kameranı geri qaytarmaq cəhdləri nəinki səmərə verməyib, üstəlik, media təmsilçiləri silahla hədələniblər. Azərbaycan Mətbuat Şurası məlum insidenti qətiyyətlə pisləyir. Qurum Fransa hakimiyyətini azərbaycanlı jurnalistlərin qanuni peşə borclarını yerinə yetirmələrinə aşkar müdaxilə faktına hüquqi qiymət verməyə, günahlarların tez bir zamanda tapılaraq məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri addımlar atmağa çağırır. Şura həmçinin Avropada və dünyada söz və ifadə azadlığının, media hüquqlarının qorunması sahəsində ixtisaslaşmış aparıcı təşkilatları da məsələni diqqətdə saxlamağa, həmrəylik nümayiş etdirməyə çağırır".

Rumıniya Peşəkar Jurnalistlər İttifaqının sədr müavini, "Ultima Ora" qəzetinin baş redaktoru xanım Teodora Marin Fransada AzTV-nin əməkdaşlarının hücuma məruz qalmasını qətiyyətlə pisləyib. Bu barədə fikirlərini bölüşən Teodora Marin deyib: "Baş verən hadisə bir daha sübut edir ki, söz və ifadə azadlığına, azad jurnalistika fəaliyyətinə hələ də dünyada basqı davam edir. Bu, yolverilməzdir və dünya ictimaiyyəti, xəbər agentlikləri, mətbuat ittifaqları buna reaksiya verməlidir".

Qeyd edək ki, Fransada AzTV-nin əməkdaşlarına hücum edilməsi barədə Rumıniyanın qabaqcıl "News24hours" xəbər portalında, "Ultima Ora" qəzetində, Rumıniya Peşəkar Jurnalistlər İttifaqının rəsmi internet səhifəsində məlumat verilib.

Beləliklə, Fransa hakimiyyətinin, xüsusən də Makronun rəhbərlik etdiyi 5-ci respublikanın əməlləri, yürütdüyü siyasət hələlik insanlığa, sivil bəşəriyyətə qarşı yönəlib. Makronun hakimiyyəti Fransada yaşayan, yaxud bura miqrasiya edən insanlara yalnız bəlalar gətirib. Afrikadan qovulan Fransadır, "qara qitə"nin usandığı, zillət çəkdiyi və nəhayət qurtulduğu imperialist dövlətin adı FRANSAdır.

**VƏLİ**

# Erməni terroru: danışan faktlar və sənədlər

*Beynəlxalq hüquqi normalara sığmayan 2 yaşlı Zəhranın faciəli ölümü*









30 ilə yaxın işğal altında olan torpaqlarımız 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində işğaldan azad olundu. İllər idi ki, arzu olaraq torpaqlarımıza getməyi diləyirdiksə, bu gün artıq arzular reallığa qovuşub. Ağalıya, Laçına, Talış kəndinə köç edən insanlar torapağı qayıdışın sevincini yaşadılar. İşğaldan azad olunan ərazilərimizdə odlar qalandı, torpaqlarımıza əzəli sakinlərin ayaqları dəydi. İsti nəfəslər isti torpaqlarımıza qovuşdu. Amma Zəfər sevincimizi yaşaya-yaşaya illərlə ermənilər tərəfindən törədilən terrorların, təcavüzün ağrılarını da yaşayırıq. Dağıdılan şəhər və kəndlərimiz, viran qoyulan abidələrimiz, canın bu torpağa fəda edən şəhidlərimiz, günahsız insanlar  Hər bir insanın taleyi dastandır və mücadilə dolu torpaq sevgisindən yoğrulub. Tökülən qanlar bu torpağı suvarıb, ona nəfəs verib. 44 günlük Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasından xəbər vermiş oldu. Gəncədə yaşanılan matəm məgər erməni təcavüzkarlığının üzü deyildimi? Bu, tarixdir: erməninin terrorçuluq əməllərinin izi və tarixi. Gəncədə törədilən terror aktı daş yaddaşımıza həkk olundu. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışacaq. Yatmış insanlara qarşı iyirmi birinci yüzillikdə törədilən terror insanlıq əleyhinə olan cinayətdir.

## ŞAMAXIDA 1 277 UŞAQ İŞGƏNCƏLƏRLƏ QƏTLƏ YETİRİLİB

Lənətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür. Tarixi dövrə nəzər salsaq görərik ki, erməni terrorunun acısını yaşamış xeyli sayda uşaqlar var. Uşaq qətliamı onların vəhşi xislətini bir daha ortaya qoymuş olur. Hələ 1918-ci il 28 yanvar Gəncə Zazalı kəndində 15 uşaq xüsusi amansızlıqla qətlə yetirilib. Elə həmin il Şamaxıda 1 277 uşağın işgəncələrlə qətlə yetirilməsi erməni terroru nəticəsində baş verib. 1920-ci il 6 yanvarda Naxçıvanın Muxtar Respublikası Bılağ kəndində öldürülən dinc sakinlər arasında 25 uşaqda qətlə yetirilib.

Yaşadığımız son illərin tarixi dövrünə nəzər salsaq görərik ki, 1988-ci ildə Qərbi Azərbaycanda yaşayan soydaşalarımız təcavüzə məruz qaldıqları zaman 216 soydaşımız xüsusi amansızlıqla qətlə yetirilib. Bunlardan 25 nəfəri azyaşlı olub.

Bu tarixi faktları silmək, yox etmək qeyri-mümkündür. Erməni silahlı bölmələrinin 2020-ci ilin oktyabrın 17-də gecə saatlarında Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşyarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu. Erməni vandallığı nəticəsində 2007-ci il təvəllüdlü Mayakov Artur Vladimiroviç 17 oktyabr tarixində ermənilərin Gəncəyə "SCUD" tipi raket atması nəticəsində yaralanmışdı. O, 7 gündən sonra müalicə aldığı xəstəxanada dünyasını dəyişib. Rusiya vətəndaşı olan Artur Gəncəyə bibisigilə qonaq gəlmişdi. Eyni qətliam nəticəsində 15 yaşlı Nigar Əsgərova da həlak olub. Gəncə şəhər K.D.Uşinski adına 29 nömrəli məktəbin şagirdi olan Nigarın hadisənin sabahı günü ad günü olacaqdı. Dünya, insanlıq bu faciəni necə qəbul edə bilər? Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini qatili olan erməni. O erməni ki, düz dörd il əvvəl 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu.

## 2 YAŞLI QIZIN FACİƏSİ

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilər Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub.

Ermənistan silahlı qüvvələri tərəfindən törədilən daha bir çirkin siyasətin nümunəsi: 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşısında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.

Ermənilərin tarixən kim olduqları dünyaya sübut edilib. Axı, Azərbaycana gələn səyyahların, böyük yazıçıların, tarixçilərin onlarla bağlı yazdıqları sözləri unutmamışıq. Qəbirləri dağıdan, şumlayan, məsciddə donuz saxlayan vəhşidən nə gözləmək olar? Beynəlxalq tribunalardan onların əməllərinə qarşı hökm oxunmalıdır. Humanizm prinsipinə hörmətsizlik edən, beynəlxalq hüququn normalarını, qanunvericiliyi kobud şəkildə pozan Ermənistan rəhbərliyi bütün hərbi cinayətlərə görə cavab verməlidir. Artıq Azərbaycanın haqlı mövqeyi müdafiə olunur.

**Zümrüd BAYRAMOVA**

# Çimərliklərdə təhlükəsizlik necə təmin olunur?



Yay mövsümünün gəlməsi ilə insanların çimərliklərə axını artıb. Bu da çimərliklərin təhlükəsizliyi ilə bağlı narahatlıqların artmasına səbəb olub. Bəs çimərliklərdə təhlükəsizlik necə təmin olunur? Hansı tədbirlər görülür? SİA mövzu ilə bağlı Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin İctimaiyyətlə əlaqələr və təbliğat şöbəsinin rəisi daxili xidmət polkovnik-leytenantı Aqşin Əlili və yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilovun fikirlərini öyrənib.

Çimərliklərin təhlükəsizliyi ilə bağlı görülən tədbirlər barədə FHN Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin İctimaiyyətlə əlaqələr və təbliğat şöbəsinin rəisi daxili xidmət polkovnik-leytenantı Aqşin Əlili: "Çimərlik mövsümünə hazırlıqla əlaqədar olaraq xidmət tərəfindən artıq aprel ayından etibarən sahilboyu ərazilərdə yerli icra nümayəndələrinin iştirakı ilə monitorinqlər keçirilir.

Monitorinqlərin keçirilməsində əsas məqsəd çimərlik üçün nəzarətsiz, təhlükəli ərazilərin müəyyən edilməsi, o cümlədən, çimərlik operatorlarına təhlükəsizlik qaydaları barədə bildirişlərin təqdim edilməsidir. Məhz monitorinqlərin nəticəsi olaraq icra hakimiyyətlərində aidiyyəti dövlət qurumlarının iştirakı ilə müşavirələr keçirilir və bu müşavirələr zamanı monitorinqdə aşkar olunmuş nöqsanlar və çatışmazlıqların həlli istiqamətində aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilir. Bundan sonra xidmətin nəzarət etdiyi çimərliklərdə, o cümlədən, İDEA İctimai Birliyinin təşəbbüsü ilə yaradılmış Bakı şəhərinin Qaradağ, Səbail, Xəzər, Sabunçu və Binəqədi rayonlarında yaradılmış 6 ictimai çimərlikdə dalğıclar vasitəsilə sualtı müayinələr aparılıb, sualtı təmizləmə işləri görülüb. Dənizdə üzmə sərhədlərini müəyyən edən nişanlar quraşdırılıb. Vətəndaşlara bu nişanlara qədər üzmə icazəsi verilir və bu nişanlar 1 metr 75 santimetr dərinliyində quraşdırılır.

Çimərlik ərazisində xilasetmə texnikaları və vasitələrinin hərəkəti üçün xüsusi zolaqlar ayrılıb, xidmətin balansında olan xilasetmə texnika və vasitələri işlək vəziyyətə gətirilib. Bundan başqa, çimərlik ərazilərində insanların təhlükəsizlik qaydaları ilə bağlı maarifləndirilməsi üçün məlumatverici nişanlar quraşdırılıb və xidmət iyun ayının 15-dən etibarən gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Məhz bu fəaliyyətin nəticəsində çimərlik mövsümünün iyunun 15-dən başlama tarixindən bu günə qədər 31 suda boğulma təhlükəsi ilə üzləşən şəxslər xilas olunub və bizim nəzarət etdiyimiz ərazilərdə ölümlə nəticələnən hadisələr qeydə alınmayıb".

## Bəs insanların təhlükəsizliyi üçün işçi heyəti, xilasedicilər necə seçilir? Hansı qurğular quraşdırılır?

Aqşin Əlili qeyd edib ki, daimi işçilərdən əlavə artıq 15 iyundan etibarən 50 nəfər xilasedici də mövsümi olaraq xidmət aparırlar: "Son günlər çimərliklərdən istifadə edən vətəndaşların sayında da artım müşahidə olunur. Məhz biz təhlükəsiz xidmətinin təşkilinin, o cümlədən, insanların sularda təhlükəsizliyinin daha səmərəli təşkili üçün əlavə olaraq matros xilasedici vəzifələrinə müsabiqə elan etmişik. Bizim daimi işçilərdən əlavə artıq 15 iyundan etibarən 50 nəfər xilasedici də mövsümi olaraq bizdə xidmət aparırlar".

O, həmçinin, vətəndaşlara müraciət edib ki, çimərlik seçərkən diqqətli olsunlar: "Əgər hər hansı bir çimərlikdə xilasedicilər, xilasetmə texnikaları və vasitələri yoxdursa, bu həmin ərazilərdə təhlükəsizlik tədbirlərinin görülmədiyini və bu kimi yerlərdən istifadənin təhlükəli olduğunu bildirir. Təhlükəsiz istirahət üçün hava şəraiti də olduqca önəmlidir. Yadda saxlamaq lazımdır ki, qanunvericiliyin tələbinə uyğun olaraq küləyin sürəti saniyədə 10 metrdən artıq olduqda çimərliklərdən istifadə təhlükəlidir və qadağandır. Nəzarət olunan çimərliklərdə bunlar qadağandır:

Üzmə sərhədlərini göstərən nişanları dənizə doğru ötüb keçmək;
suda kobud hərəkətlər etmək;
spirtli içki qəbul edərək dənizə girmək;

çimərlik ərazisinə su nəqliyyatı vasitəsilə daxil olmaq.

Yadda saxlamaq lazımdır ki, 13 yaşına qədər uşaqlar yalnız böyüklərin müşayiəti ilə çimərlikdən istifadə etməli, ərazidə quraşdırılmış maarifləndirici lövhələrin və xilasedicilərin tələblərinə sözsüz əməl olunmalıdır. Çimərliklərdən təhlükəsiz istirahət səhər saat 9-dan axşam saat 8-dəkdir. Vətəndaşlara, xüsusən valideynlərə müraciət edirik ki, uşaqları nəzarətsiz qoymasınlar. Çünki son zaman bəzi bölgələrimizdə bədbəxt hadisələr baş verir, uşaqlar su kanallarından, çaylardan, süni göllərdən istifadə edirlər, nəticəsi isə suda boğulma hallarına gəlib çıxır. Bu kimi su hövzələri isə çimərlik məqsədləri üçün nəzərdə tutulmayıb. Həmin suvarma kanallarının inşasında dəmir betonlardan istifadə olunur, relyeflərində şürüşkənlik olur. Süni göllərdə bataqlıqlaşma halları qeydə alınır ki, vətəndaşlar bu kimi ərazilərdən istifadə edəndə təhlükə ilə üzüzə qalırlar. Bir daha qeyd edirik ki, valideynlər diqqətli olsunlar, uşaqları nəzarətsiz buraxmasınlar".

Çimərlik mövsümündə təhlükəsizlik tədbirləri görülsə də, qurumlar gücləndirilmiş iş rejiminə keçsə də, həmişə qoyulan qaydalara əməl etməyən vətəndaşlar da olur".

## İnsanların çimərliklərdə təhlükəsizlik qaydalarına əməl etməməsinin səbəbi nədir?

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Artıq ənənəvi problemlərlə yanaşı, yeni, qlobal problemlər də ortaya çıxır. Bu da çimərlikdə təhlükəsizliklə bağlı çox ciddi addımlar atmağı tələb edir. Bu il yay sərin keçib yağış yağsa da, qlobal istiləşmənin çoxalması, hərarətin artması ilə müəyyən zərərli şüalar və dəri problemlərinə görə əvvəl saat 12-dən 4-ə qədər çimərliyə gedilməməsi məsləhət görülürdüsə, indi artıq səhər saat 9-dan 11-ə qədər və saat 5-dən 8-ə qədər çimərliyə gedilməsi tövsiyyə olunur. Digər problem kimi isə Xəzər dənizi və çimərlik kimi istifadə edilən Kür çayı, Mingəçevir su anbarı kimi su hövzələrində də qlobal istiləşmə nəticəsində su buxarlanması, çaylarda az sululuğun yaranması, yağışların azalması, suyun çəkilməsi və ənənəvi çimərlik yerlərinin əvəzinə daşlı, palçıqlı bataqlıq yerlərin yaranmasını göstərə bilərik. Bu problemlərə qlobal xəstəlikləri və epidemiyaları da əlavə edə bilərik. Qidalarla bağlı eyni zamanda, koronavirus kimi virusların suların infeksiya və bioloji çirklənməsi ilə əlaqədar problemlər yaşayırıq. Bu, qlobal şəkildə baş versə də, Azərbaycanda da vardır. Lokal mənada həm təhlükəsizlik baxımından, həm də ətraf mühitin korlanması baxımından Azərbaycan insanında ümumiyyətlə, çimərlik mədəniyyəti hələ də lazımi səviyyədə formalaşmayıb. Yediklərini yerə atmaq, qumdan vəhşicəsinə istifadə etmək, dəniz suyunun çirklənməsi, paltarlarını harada gəldi soyunmaq, özünü başqalarına göstərmək üçün uzaq yerlərə və qadağan edilmiş sularda üzmək kimi problemlərlə yanaşı, eyni zamanda, digər məsələlər də var.



Bütövlükdə Xəzər dənizi və digər çimərlik zonası sayılan yerlərin təhlükəsizlik xidməti, sulardan xilasetmə xidməti və bu kimi dövlət, özəl qurumlarla əhatə olunmaması eyni zamanda insanlarımızın həm çimərlik mövsümündə, həm də ümumiyyətlə normal əylənə bilməsi üçün bir-birinə problem yaratmasını biz göstərə bilərik. Hər kəs istəyir ki, əyləncənin ən yaxşısı ona düşsün, nə cür istəyirlər, başqalarına mane olacaq şəkildə, heç bir təhlükəsizlik qaydalarına əməl etməyərək əylənməyə çalışırlar. Bu da digər insanlar üçün problemlər yaradır, çimərlikdə xidmət göstərən qurumların işinə əngəllər törədir. Bu zaman uşaqlar, məsələn su hovuzuna düşüb əzilirlər, boğulurlar və bunun kimi digər problemlər yaranır".

**A.X. Əbilov əlavə edib ki, bütün bu problemlərə kompleks halında yanaşmaq lazımdır:** "Düşünürəm ki, bununla əlaqədar maariflənməyə ehtiyac var, insanlarımız bir çox tövsiyyə edilən və dünyanın hər yerində təklif olunan təhlükəsizlik qaydalarına riayət etməyə çalışmalıdır. Onlar bir-birinə mane olmadan, problem yaratmadan bir çox məsələlərlə yanaşı, təhlükəsizliyə də önəm verməlidirlər. Düşünürəm ki, çimərliklərdə həm təhlükəsizlik, həm də təmizliklə bağlı inzibati xətalar məcəlləsində müəyyən dəyişikliklər olmalıdır. Bu dəyişikliklər insanların çimərliklərdən normal, təhlükəsiz istifadə etməsi ilə əlaqədar cərimələrdən tutmuş müəyyən normativ aktların sərtləşdirilməsi və qəbul edilməsinə qədər kompleks halda baxılmalıdır. Eyni zamanda, maarifçilik məsələsinə də önəm verilməlidir. Çünki insanlar müəyyən məlumata sahib olmayanda, maarifçilik, təbliğ xarakterli materiallarla tanış olmayanda böyük problemlər yaşayırlar. Bu baxımdan təklif edərdim ki, bunlar paralel aparılsın və çimərliklər, əyləncə yerlərində təhlükəsizlik qayda-qanunları yaşa görə müəyyənləşdirilsin. Məsələn, gənclər, uşaqlar, yaşlı nəslin nümayəndələri, ailə yerləri üçün ayrı çimərlik yerləri və zonaları müəyyənləşdirilsin ki, insanlar çimərliklərdən rahat istifadə edə bilsinlər".



***Aysel Naibova***

ARAŞDIRMA

# Saçlarımız niyə gənc yaşda ağarır?

***Yaşlanmanın görünən əlamətlərindən sayılan saçların ağarması bəzən çox erkən yaşlarda da baş verə bilər. Odur ki, gənc yaşda saçları ağarmağa başlayan yeganə insanın siz olduğunuzu düşünürsünüzsə, yanılırsınız. Çünki saçların vaxtından əvvəl ağarması çox yayılmış bir problemdir. SİA mövzu ilə bağlı araşdırma edib.***



## B12 vitamini çatışmazlığı

Mütəxəssislərin fikrincə, gənc yaşda saçların ağarmasının ən böyük səbəbi B12 vitamini çatışmazlığıdır. Bu çatışmazlıq saçların incəlməsinə və tökülməsinə səbəb ola bilər.

## Tiroid funksiyaları ilə bağlı problemlər

Araşdırmalar göstərir ki, qalxanabənzər vəzi problemləri saçlara kökündən ucuna kimi təsir edir. Əgər ağarmış, qırılan və ya yağlı saç problemi yaşayırsınızsa, bunun səbəbi tiroidinizin kifayət qədər yaxşı işləməməsi ola bilər.

## Sağlam qidalar yerinə daha çox zərərli qidalar istehlak etmək

Sağlam qidalanmamaq da saçlarınızın vaxtından əvvəl ağarmasına səbəb ola bilər. Bu mövzuda aparılan müxtəlif araşdırmalar ferritin, kalsium, D vitamini, mis, sink və dəmir çatışmazlığının bu problemə səbəb ola biləcəyini təsdiqləyir.

## Daimi stress və narahatlıq yaşamaq

Stress və narahatlıq saçlarınızın vaxtından əvvəl ağarmasına səbəb olur.

## Genetik meyilli olmaq

Bəli, ağ saçlarınızı valideynlərinizdən və ya babalarınızdan miras ala bilərsiniz. Dermatoloqların fikrincə, saçlarımın nə vaxt ağaracağını müəyyənləşdirməkdə genetik kodlarımız böyük rol oynayır. Başqa sözlə desək, ailənizdən birinin saçı erkən yaşda ağarırsa, sizin də eyni şeyi yaşama ehtimalınız yüksəkdir.

## Kimyəvi saç məhsulları və zərərli boyalardan istifadə

Şampunlardan saç boyalarına qədər əksər saç məhsulları saçların ağarmasına səbəb ola bilər. Bu məhsulların tərkibindəki zərərli kimyəvi maddələr saçınızın təbii rəngini itirməsinə səbəb olan melaninin səviyyəsini aşağı salır.

## Saçların erkən ağarmasının qarşısını almağın yolları

- Saçlarınızı günəşin zərərli təsirlərindən qoruyun. Mümkünsə, çölə çıxarkən şapka və ya buna bənzər əşyalar taxın.
- Qıvrımlıq verən ütülərdən və saç qurutma maşınlarından mümkün qədər çəkinin. Geniş dişli daraqla saçınızı darayın.
- Saçınızı mütəmadi olaraq kokos yağı ilə masaj edin.
- Gündəlik qida rasionunuza kələm, badam, kök suyu və brokoli daxil edin.

Təbiətdə mövcud olan hər şey rəngini piqmentdən alır. Saçın sarışın, qara və ya qırmızı olmasından asılı olmayaraq, orijinal rəngini piqmentlərə borcludur. Saçlara təbii rəngini verən piqment azalmağa başlayanda saç ağarma prosesinə keçir. Piqment istehsal edən hüceyrələrin tutumu azaldıqca saçlar əvvəlcə boz rəngə çevrilir, piqment istehsalı dayandıqda isə tamamilə ağarır. Buna görə də ağ və təbii saç rəngini bir-birindən fərqləndirən tək şey piqmentin olması və ya olmamasıdır. Tünd saçlarınız varsa, ağlarınız daha tez gözə çarpacaq. Bunun səbəbi boz və ya gümüşün tünd rənglərlə daha çox ziddiyyət təşkil etməsidir. Boz və ya ağ rəngə çevrilmiş saç telləri sarışın və ya qırmızı saçlar arasında çox diqqət çəkməyə bilər.

## Saç niyə ağarır?

Saçların niyə ağardığını dəqiq başa düşmək üçün əvvəlcə piqment istehsal edən hüceyrələrdən danışmaq lazımdır. Piqmentlər saçın rənglənməsində rol oynasa da, ağartma prosesini idarə edən melanosit hüceyrələridir. Melanosit hüceyrələri melanin piqmentinin meydana gəlməsini dəstəkləyən təsirə malikdir. Yaşla, melanositlər zəifləyir və melanin istehsalını dayandırır. Sabit melanin dəstəyi olmadan saç təbii rəngini itirir və boz, gümüş və ya ağ olur. Bu proses bir neçə saç telindən başlayır və bütün saçlar rəngini itirəndə bitir.

## Ağ saçların quruluşu fərqlidir?

Məşhur inancın əksinə olaraq, ağ saçlar piqmentli iplərdən daha qalın və ya dolğun deyil. Əslində, ağ saçlar adətən daha incə olur. Ancaq yaşlandıqca baş dərisi daha az yağ istehsal edir. Saçların qurumasına səbəb olan bu vəziyyət, piqment itkisi olan saçların daha qaba görünməsinə səbəb olur. Düzgün nəm terapiyası ilə ağ saçlar piqmentli saçlar kimi yumşaq ola bilər.

## Ağarmış saçlarda piqment istehsalı yenidən aktivləşə bilərmi?

Təəssüf ki, melanositlər köhnəldikdən və melanin istehsalını dayandırdıqdan sonra saçların ağarmasının qarşısını almaq mümkün deyil. Bəzi mənbələrin iddialarının əksinə olaraq, saçlar ağarmağa başlayan kimi yenidən piqmentasiyaya çevrilə bilməz. Yalnız bir istisna var, o da sağlamlıq problemlərinə görə saçların ağarmasıdır. Bununla belə, bu da nadir haldır.

## Saçlar nə vaxt ağarmağa başlayır?

Dünyada aparılan araşdırmalara görə, 34-44 yaş arasında saçlar ağarmağa başlayır. Bununla belə, bəzi insanların 34 yaşından əvvəl saç ağarma yaşaya biləcəyi deyilir. Bu, sağlamlığınızın pis olduğunu və ya bir şeyin səhv olduğunu ifadə etmir.

## Hamının saçı ağarır?

Hər kəsin saçları bir müddət sonra ağarmağa başlayır. Bu yaşlanma prosesinin təbii bir hissəsidir. Ancaq bəzi insanların altmış yaşlarında belə təbii saç rəngini qoruduğunu görsək də, bəzi insanların hələ orta məktəbdə oxuyarkən ilk ağ saç tellərinə rast gəldiyinin şahidi oluruq. Bəs bunun səbəbi nədir? Tədqiqatların nəticələrinə görə, mütəxəssislər genetik meylin saçların ağarmasının vaxtını və sürətini müəyyən etdiyini söyləyirlər. Bu vəziyyətdə, ailənizdə erkən yaşda saçı ağarmağa başlayan biri varsa, sizdə də ola bilər. Saçların ağarmasında genetik faktorlarla yanaşı, etnik mənsubiyyət də rol oynayan faktor hesab olunur. Məsələn, qafqazlıların saçları digər etnik mənşəli insanlara nisbətən daha erkən yaşda ağarmağa meyllidir.

## Saçların ağarmasının qarşısını almaq olarmı?

Təəssüf ki, bunun qarşısını almaq üçün heç bir yol yoxdur. Amma saçların ağarmasını yavaşlatmağa kömək edən bəzi tədbirlər var.

## Düzgün qidalanın

Tədqiqatlar göstərir ki, vitamin və mineral çatışmazlığı olan bir pəhriz saçda piqment itkisinə səbəb ola bilər. Yumurta, balıq və süd kimi zülalla zəngin qidalardan ibarət balanslaşdırılmış və sağlam pəhrizin həyata keçirilməsi saçların vaxtından əvvəl ağarmasını gecikdirmək üçün dəstəkləyici tədbir kimi tövsiyə olunur.

## Vitamin əlavələri qəbul edin

Sağlam qidalanma vacibdir, lakin bu, tək başına kifayət etməyə bilər. Vitamin B12, D, E və biotin çatışmazlığı saçların vaxtından əvvəl ağarmasına səbəb ola bilər. Sağlam və balanslı bir pəhriz proqramı ilə yanaşı, kənardan vitamin əlavələri alaraq prosesi dəstəkləyə bilərsiniz. Həmçinin mis əlavəsinin saç piqmentlərinə müsbət təsir etdiyi deyilir.

## Siqareti buraxın

Siqaret təkcə dərinizi deyil, saçınızı da yaşlandırır. Alimlər siqaretin saç hüceyrələrinə mənfi təsir etdiyini və vaxtından əvvəl ağarmağa səbəb ola biləcəyini təklif edirlər.

## Stressdən qaçın

Artıq hər kəsə məlumdur ki, stress insanların psixi və fiziki sağlamlığına mənfi təsir göstərir. Stressin saç follikullarını sərbəst radikallara qarşı daha həssas edə biləcəyi, bu da saçların vaxtından əvvəl ağarmasına səbəb ola biləcəyi düşünülür. Düzgün qidalanma, məşq, nizamlı yuxu və meditasiya kimi həyat tərzi dəyişikliklərini həyatınıza daxil etməklə, stress səviyyənizi azalda və beləliklə saçların ağarması prosesini yavaşlatmağa kömək edə bilərsiniz.

## Ağ saçlarınızı boyamalısınız?

Bu sualın cavabı hər kəs üçün fərdidir. Ağ saç tellərini kamuflyaj etmək məqsədi ilə saçların davamlı olaraq kimyəvi boyama məhsulları ilə boyanması saçın təbii quruluşunu zədələyir, zamanla daha cansız, köhnəlmiş və mat hala düşməsinə səbəb olur. Saçların ağarması gözəl və baxımlı görünüşə mane olmur.

## Ağ saçlara fərqli qulluq etməliyik?

Ağ saç telləri fərqli bir qulluq rejimi tələb edir. Ağları yenicə fərq etmisinizsə, bir müddət bu barədə narahat olmaq lazım deyil. Saçlarınız təxminən 30% ağarana qədər adi saç baxım vasitələrini tətbiq edə bilərsiniz. Ancaq bu nisbəti keçdikdən sonra ağ saçlarınızı daha sağlam və parlaq saxlamaq üçün tövsiyələrə əməl edə bilərsiniz.

## Tez-tez nəmləndirin

Ağarmağa başlayan saç kökləri qurumağa meyillidir. Bu, saçların cansız və köhnəlmiş görünməsinə səbəb olur. Aloe vera, yulaf ekstraktı və acai kimi təbii bitki ekstraktlarından hazırlanmış saça qulluq maskalarından istifadə edərək təbii və parlaq görünüş əldə edə bilərsiniz. Bundan əlavə, saça çəkildikdən sonra yuyulması lazım olmayan saç baxım məhsulları ilə saçınızı bütün gün nəmli saxlaya bilərsiniz.

## Saçınızı istidən və günəşdən qoruyun

Ağ saçlarda piqment olmadığı üçün günəş şüalarından daha çox təsirlənir və zədələnir. Eyni şəkildə, yüksək istiliklə forma verən məhsullar saç üçün çox zərərlidir və tətbiq etməzdən əvvəl saça istilik qoruyucu bir məhsul çəkməyi unutmayın.

***Ayşən Vəli***

# Ermənistanın törətdiyi ekoloji terror bəşəriyyətə təhdiddir





Dünya xalqları və dövlətləri üçün təhlükə mənbəyi olan erməni toplumu işğal etdiyi Azərbaycan ərazilərində təkcə insanları kütləvi şəkildə qətlə yetirməsi və ya yaralaması, yüz minlərlə azərbaycanlılının ev-eşiyini dağıdıb, qarət etməsi ilə yekunlaşmayıb, bu vəhşi toplum həm də Azərbaycanın ekaloji mühitinə böyük fəlakətlər törətmişlər. Hesablamlara görə, 30 illik işğal dövründə ermənilərin Azərbaycanın flora və faunasına, su hövzələrinə, meşə massivlərinə vurduğu ziyanlar, törətdiyi vəhşiliklər alman faşizminin İkinci Dünya müharibəsində xalqlara və dövlətlərə vurduğu ziyandan qat-qat böyükdür. Erməni daşnak terrorçu dəstələri Azərbaycan torpaqlarının işğalı zamanı 155 növ yeraltı və yerüstü sərvəti qarət və talan etmişlər. Kəlbəcər və Zəngilan ərazilərində 15 qızıl, 6 civə, 2 mis, 13 müxtəlif növ tikinti daşı, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları, 11 şirin yeraltı su və 10 mineral su yataqları vəhşicəsinə istisamar və talan edilməklə Azərbaycana milyardlarla ABŞ dolları ziyan vurmuşlar.

## Emənistanın beynəlxalq məhkəmə qarşısına çıxarılması və cəzalandırılması vaxtı yetişib

Diqqətçəkən məqam ondan ibarətdir ki, erməni terrorçu dəstələri və onların başında dayananlar dünya birliyinin ekaloji terrorun dayandırılması çağırışlarına, qəbul edilən qərarlarına əhəmiyyətsiz yanaşmışlar. 2006-cı il də BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş ”Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı Qətnamədə işğal altında olan Azərbaycan torpaqlarında törədilmiş yanğınların regionun ekoloji təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi məsələsi qaldırılmışdı. 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunan Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı qətnamədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb olunmuşdu. Fakt ondan ibarətdir ki, nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi qəraralra Ermənistanın terrorçu rejimi syğısız yanaşmışdır. Əksinə vandal hərəkətlərini və əməllərini daha geniş şəkildə Azərbaycanın işğal etdiyi ərazilərdə və sərhədboyunca davam etdirmişdir. Araşdırmalar zamanı və dövlət qrumlarının yaydıqları rəsmi məlumatlara görə, erməni terrorçu dəstələri tərəfindən talan edilən yeratı və yerüstü sərvətlər Qızılbulaq, Mehmana, Dəmirli, Canyataq-gülyataq, Ağdərə, Şorbulaq, Şuşa, Şirlan, Turşsu, Xocalı, Zərinbax, Ağçay, Xəankəndi, Ediş, Xocavənd, Söyüdlü, Ağduzdağ, Tutxun, Ağyataq, Levçay, Kilsəli, Keştək, Keçəldağ, Çəlli, Yuxarı istisu, Aşağı istusu, Mozçay, Qoturlu, Çilkəz, Narzanlı, Əhmədli, Hoçaz, Laçın, Novruzlu, Yuxarı Əkərəçay, Quşçu, Minkənd, Hacılı, Xanlıq, Qubadlı, Vejnəli, Bartaz, Oxçuçay, Zəngilan, Şərifan, Tuluz, Qaracalı, Soltanlı, Çaxmaxçay, Göyərçin-Veysəlli, Minbaşılı, Ağtəpə, Cəfərabad, Şahverdilər, Çaxmaxqaya, Dövlətyarlı, Diləgərdi, Kürdmahmudlu, Quruçay, Şahbulaq, Gülablı, Çobandağ, Boyəhmədli, Şahbulaq, Ağdam, Qarqarçay, Xaçınçay və s. Yataqlardır. Həmin yataqlarda sənaye ehtiyatları təsdiq edilmiş 132,6 ton qızıl, 37,3 min ton qurğuşun, 189 milyon m3 mişar daşı, 1 milyon 526 min ton gəc, 1 milyon 968 min m3/gün yeraltı şirin su, 18 milyon 432 min m3 üzlük daşı, 23 milyon 243 min m3 gil, 57 milyon 965 min ton tikinti daşı, 7805 m3/gün mineral sular, 96 milyon 987 min ton qum-çınqıl, 1898, 4 ton civə, 4 milyon 473 min m3 perlit, 2 milyon 144 min m3 pemza, 129 milyon 833 min m3 soda istehsalı üçün əhəngdaşı, 147 milyon 108 min ton sement xammalı və s. iqtisadiyyatın inkişafında vacib əhəmiyyət daşıyan faydalı qazıntılar aşkar edilmişdir.

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın bitki örtüyünə, meşələrinə amansız divan tutulmuşdur. Qarabağ və onun ətrafında 250.928 hektar meşə sahəsi, o cümlədən Zəngilan rayonundakı Bəsitçay və Laçın rayonundakı Qarabağ dövlət qoruqları, həmçinin dörd təbiət yasaqlığı, digər çoxsaylı təbiət abidələri amansızlıqla məhv edilmişdir. Ermənilər Azərbaycanın işğal edilən ərazilərində yanğınlar törətməklə ekoloji terror tədbirlərini daha da genişləndirmişlər. 2006, 2010, 2014, 2017 -ci iilərdə yaz və yay aylarında törətdikləri yanğınlar zamanı Azərbaycan təbiətinə, flora və faunasına ağır zərbələr vurmuşlar. Meşələrin məhvi isə təkcə flora və faunanın məhvi demək deyil, eyni zamanda regionun iqliminə neqativ təsir göstərən amillərdəndir. Qlobal iqlim dəyişikliklərinin dünya üçün ciddi sınaq və təhlükəyə çevrildiyi bir zamanda Ermənistanın işğal edilmiş ərazilərdə meşələrə divan tutması bütövlükdə Cənubi Qafqaz regionunda bioloji müxtəlifliyin məhvinə, ekoloji tarazlığın pozulmasına yönəlib. Sərhəd zolağında törədilən geniş miqyaslı yanğın, işğal olunmuş ərazilərdə ağacların kütləvi qırılması ilə erməni vandalları Azərbaycana 4,5 milyon ABŞ dolları həcmində ziyan vurmuşlar. İşğal altında olmuş Azərbaycan ərazilərində meşələrin ümumi sahəsi 247,352 hektar olub. Bunun təxminən 460 növdən çox yabanı ağac və kol bitkisi olmaqla, 13,197 hektarı xüsusi əhəmiyyətə malik olub. Azərbaycan ordusunun parlaq Qələbəsi ilə torpaqlarımız azad edildikdən sonra məlum olub ki, Kəlbəcər rayonunda Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyinin (IUCN) qırmızı kitabına salınmış ağacların bitdiyi 968 hektarlıq ərazi məhv edilib. Məlumatlara istinadən qeyd etmək olar ki, Ermənistan işğalçıları Azərbaycan ərazilərində 21 növ endemi, həmçinin yüzlərlə nadir və nəsli kəsilməkdə olan bitki növünü məhv edib. Bəsitçay Dövlət Təbiət Qoruğunda, Qaragöl Dövlət Təbiət Qoruğunda, həmçinin Laçın, Qubadlı və Daşaltı regionlarındakı dövlət təbiət qoruqlarında çinar, qoz, palıd və s. nadir ağaclar kəsilib, işğal atındakı ərazilərdən daşınaraq mebel, çəllək və silah istehsalında istifadə edilib. Bu ağac növlərinin əksəriyyəti nəsli kəsilmək təhlükəsi ilə üzləşib. Ümumiyyətlə, erməni kəmiriciləri işğal etdikləri Azərbaycanın dilbər guşələrini viran qoyub, təbiətə sarsıdıcı zərbə vurublar. Təbii ki, sərvətlərimizin talan edilməsi, təbiətin məhv edilməsi erməni toplumuna baha başa gələcək. Artıq Ermənistanın haqq divanına çəkilməsi üçün Azərbaycan yerli və xarici ekspertlərinin iştirakı ilə viran edilən ərazilərdə dəqiqləşdirmələr və hesablamalar işi aparırlar. Yəni, Ermənistan beynəlxalq məhkəmə qarşısına çıxarılmaqla layiq olduğu cəzanı və təzminatı ödəyəcək. Sevindirici və qürurverici haldır ki, artıq erməni işğalına son qoyulub. Güclü və qüdrətli Azərbaycan ordusunun keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan təslimçilik aktını imzalamağa məcbur olub. 30 ilə yaxındır ki, düşmən tapdağı altında inildəyən, meşələri talan edilib, sərvətləri qarət olunan gözəl məkanımız aydınlığa çıxıb. O bölgələrə həyat qayıdıb. Artıq işğaldan azad edilmiş ərazilərimiz canlanmaqdadır. Azərbaycan dövləti, onun vətəndaşları işğaldan azad edilən ərazilərdə ağacəkmə aksiyaları həyata keçirirlər. Qısa müddət ərzində on mindən çox müxtəlif növ ağac əkilib.

## İşğaldan azad edilən ərazilərimiz yenidən canlanır

Ümumiyyətlə, son 20 ildə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan beynəlxalq aləmdə iqtisadi möcüzələr ölkəsi, siyasi sabitlik adası kimi tanınır. Artıq dünyanın elə bir ölkəsi, elə bir beynəlxalq təşkilatı yoxdu ki, Azərbaycanla ikitərfli əlaqələrin, əməkdaşlıq münasibətlərinin qurulmasında maraqlı olmasın. Hər il ölkəmizə xarici investisiyaların həcmi artmaqdadır. Bu, təkcə neft, qaz sənayesi deyil, ümumilikdə bütün sahələri əhatə etməkdədir. Söz yox ki, xarici sərmayə iqtisadiyyatın dirçəlişi üçün kapital rolunu oynamaqla yanaşı, daxili iqtisadi struktur islahatlarının aparılmasına mühüm təkan verir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində də mühüm sərəncamlar verilib, müvafiq addımlar atılb, qərarlar verilib. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramı uğurla yerinə yetirilir.

Hər il dünyada iyunun 5-də qeyd olunan Ətraf Mühitin Mühafizəsi Günü Azərbaycanda da böyük coşqu və həmrəyliklə qeyd olunur. Həmin gün və sonrakı günlərdə ölkənin hər yerində insanlar bayram əhvali-ruhiyyəsi ilə küçə və meydanlara, dağ yamaclarına, meşə ətəklərinə çıxaraq minlərlə müxtəlif növ ağaclar əkirlər. Ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident



Mehriban xanım Əliyevanın ağacəkmə kampaniyalarında iştirak etmələri ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisi sayıla bilər. Son 20 il ərzində 130 min hektar sahədə meşəbərpa işləri aparılıb və yeni meşələr salınıb, 100 milyon ədəd ağac əkilib, 350 milyon ədəd əkin materialı yetişdirilib və 2 min ton toxum tədarük edilib. Meşə ilə örtülü ərazilərin sahəsi 11,4 %-dən 11,8 %-dək artıb. Həyata keçirilən ardıcıl tədbirlər nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin 4,5 %-dən 10,3 %-ə qədər çatdırılıb. Eyni zamanda, Bakı və Abşeron yarımadasının yaşıllaşdırılması ilə bağlı müasir metodlara əsaslanan iri yaşıllaşdırma layihələri də həyata keçirilib. Belə ki, 3600 hektardan artıq ərazidə 4,5 milyona yaxın ağac əkilib, müasir damcılı suvarma sistemləri ilə təmin olunub. Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən ”Hərəmiz bir ağac əkək” layihəsi də bu sahəyə böyük töhfələr verib. Heydər Əliyev Fondun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində ölkəmizdə minlərlə növ ağac əkilib, meşə zolaqları salınıb. Bu xeyirxah və humanist işlər yaxın günlərdə daha geniş və əhatəli şəkildə həyata keçiriləcək. Daha doğrusu, Azərbaycanın hər yerində, o cümlədən işğaldan azad edilən ərazilərimizdə insanlar öz doğma yurd -yuvalarına qayıtdıqdan sonra daha böyük sürətlə ağac əkəcək, meşə zolaqları salacaq, park və xiyabanlar yaradacaqlar.

**İ.ƏLİYEV**



# “Azərbaycan Qarabağ üzərində de-fakto suverenliyini bərqərar edəcək”

Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov Ermənistan-Azərbaycan nizamlanması ətrafında baş verən son hadisələri ”Moskva-Baku” portalına şərh edib. Politoloqun müsahibəsini oxucularımıza təqdim edirik.



***- Fransa prezidenti Emmanuel Makron Marseldə erməni icması ilə görüşündə Parisin Qarabağ məsələsində qətiyyətli olduğunu açıqlayıb. "Mən Azərbaycan prezidenti İlham Əliyevə Ermənistanın baş naziri Nikol Paşinyanın özündən daha çox təzyiq göstərmişəm və göstərəcəyəm. Artsax məsələsi ilə bağlı dəqiq mövqe və mesajı olan yeganə şəxs mənəm. Artsaxa və bütövlükdə Ermənistana qarşı qətiyyətimə şübhə etməyin. Beynəlxalq aləmdə bu gündəmlə demək olar ki, yeganə mən qalsam belə, səylərimi davam etdirəcəyəm", - Makron bildirib.***

- Makronun çıxışına baxsaq, maraqlıdır ki, o, ”Qarabağ” yox, ”Artsax” adından istifadə edir. Bu, daha çox erməni olmaq, ermənilərdən daha çox erməni milli maraqlarını müdafiə etmək deməkdir. Bu yanaşma Ermənistan-Azərbaycan danışıqlar prosesində Fransa və Avropa İttifaqının imkanlarını əngəlləyir.





Eyni zamanda, ölkəsində belə siyasətlə, bu cür bəyanatlarla Makron Fransadakı nəhəng və nüfuzlu erməni icmasından böyük dəstək alacaq.

***- Bu günlərdə Azərbaycanla Ermənistan arasında növbəti eskalasiya baş verdi. Separatçılar Ağdamda Azərbaycan mövqelərini atəşə tutub, bir Azərbaycan əsgəri yaralanıb. Buna cavab olaraq Azərbaycan Silahlı Qüvvələri atəş nöqtəsinə hücum edib, bir neçə separatçı məhv edilib. Üstəlik, onların arasında Ermənistan hərbçiləri də var idi ki, onlar İrəvanın fikrincə, prinsipcə Qarabağda olmamalıdırlar. Ermənistan, üçtərəfli bəyanata görə, silahlı qüvvələrini geri çəkməli idi. Vəziyyəti necə şərh edərdiniz?***

- Eskalasiya hər zaman alovlanacaq. Bu da başqa bir göstəricidir: nizamlanma prosesi getmir. Çoxlu danışıqlar platformaları var- Moskva, Vaşinqton, Brüssel... Amma danışıqlar platformalarında real irəliləyiş yoxdur. Bu yaxınlarda, deyəsən, Zəngəzur dəhlizində irəliləyiş görünürdü, ona görə də hər şey müsbət elan olundu, sonra, görünür, yenə hər şey puç oldu.

Qarabağda hələ Bakının nəzarətində olmayan ərazilərin Azərbaycana necə veriləcəyi əsas problem olaraq qalır. Görünür, bu, hərbi yolla baş verəcək.

Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən üçtərəfli bəyanat imzalanandan iki il yarım keçir və nizamlanmada heç bir irəliləyiş yoxdur. İki ölkənin cəmiyyətlərində bir-birinə böyük nifrət hökm sürür, silahlı qüvvələr bir-birinə çox yaxın dayanıb. Bu şəraitdə belə atışmalar davamlı olaraq baş verəcək.

Eyni zamanda, Azərbaycanın bu cür məhdud əməliyyatlar aparmağa tam haqqı var. Erməni tərəfinin özü günahkardır- axı, üçtərəfli bəyanata görə, o, silahlı birləşmələri Qarabağdan çıxarmalı idi və Ermənistanın silahlı qüvvələri ümumiyyətlə orada olmamalıdır. Bu, Azərbaycanı güc tətbiq etməyə məcbur edir. Vəziyyət gərgin olaraq qalır. Böyük ehtimalla güclü toqquşma olacağını düşünürəm.

Eyni zamanda, hesab edirəm ki, tədricən, Azərbaycanın Qarabağ üzərində de-fakto suverenliyinin bərqərar olması baş verəcək.

***- Nəyə görə eskalasiya Ermənistan tərəfi tərəfindən təhrik olunur?***

- Çünki Ermənistanda Azərbaycana qarşı nifrət əsrlər boyu formalaşıb. Onlar ”məkrli plan”dan daha çox, nifrət etdikləri, Azərbaycana uduzacaqlarını hiss etdikləri üçün atırlar, amma sakitləşə bilmirlər.

***- Bu günlərdə Azərbaycan XİN rəhbəri bir daha qeyd etdi ki, Ermənistan Bakı qarşısında Qarabağ ermənilərinin reinteqrasiya ediləcəyi təqdirdə onlara hansısa "xüsusi" münasibət göstərmək şərti qoyur. Görünür, "status" məsələsi yenidən nəzərdə tutulur.***

- İrəvan Qarabağ ermənilərinə Azərbaycandan muxtariyyət tələb etmək üçün Qarabağın ”statusu” məsələsini gizli müzakirə etmək istəyir. Sanki Rusiyanın Voronej vilayəti hansısa xüsusi status tələb edir.

Amma Azərbaycan o əraziyə muxtariyyət verməyəcək, çünki o, vaxtilə erməni əhalisinin öz muxtariyyət statusundan sui-istifadə etdiyi tarixi təcrübə ilə üzləşib və bu, həm Azərbaycan, həm də Ermənistan tərəfləri üçün uzunmüddətli və ağrılı Qarabağ münaqişəsinə gətirib çıxarıb. Azərbaycanda bir daha belə mina qoymağa heç kim razı olmayacaq.

***- Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqların üçtərəfli raundu nə ilə yekunlaşacaq?***

- Heç nə ilə. Amerikalıların bu məsələni necə həll edəcəyi ilə bağlı yalnız bir şərti variant var: Qarabağı Azərbaycana satmaq. Vaşinqton İrəvana böyük pul müqabilində Qarabağı Bakıya qaytarmağı təklif edə bilər. Amma o zaman Vaşinqton Bakıdan da öz əlavə şərtlərini tələb edəcək...

***Tərcümə - Elçin Bayramlı***



# Qızlar, diqqətli olun!

MƏTANƏT

Müasir günümüzdə hər tipdə insanla, o tip insanların yaratdığı hadisələrlə qarşılaşırıq. O tip insanların törətdikləri əməllərin əziyyətini isə əlbəttə ki, bizlər yaşayırıq. İstəsək də, istəməsək də. Hazırda cəmiyyətimizdə bəlkə də ”hicab” sözünün, bu tərz geyimin mənasını bilməyən bəzi qadınlar peyda olub. Onlar başdan-ayağa qapanaraq guya özlərini din adamı hesab edirlər. Metroda, marşrut avtobuslarda, yolda-rizdə gənc qızlara yaxınlaşır və onları guya düz yola dəvət etmək istəyirlər.

Bu günlərdə həmin qızlardan biri onlar arasındakı dialoqu redaksiyamıza danışdı. Mən də fürsətdən istifadə edib həmin söhbəti qələmə aldım ki, bütün qızlar oxusunlar və belə fırıldaqçılara aldanmasınlar.

Həmin qız deyir ki, metroda eskalatordan enərkən bir hicablı gənc qadın mənə yaxınlaşdı. Dedi ki, sən niyə belə geyinmisən? Mən də şübhəyə düşdüm sanki, bir özümə göz gəzdirdim. Baxdım ki, üzərimdə artıq-əskik bir şey yoxdur. Belə olanda qadına ”nə cür geyinmişəm ki?”,- dedim. O da qollarımı göstərib dedi ki, bunları nə üçün, kim üçün açmısan? Axı qadın qapalı geyinməlidir. Onu heç kim görməməlidir. Bax, biz hər gün yığışırıq, bu məsələləri danışırıq. Gəl sən də bizə qoşul, sən də öyrən, əsl həqiqətləri sən də bil.

Qız da həmin hicablı qadına deyib ki, axı mənim geyimimdə nə qüsur var ki? Normal geyimdir də.

Qadın da israrla onlara qoşulmasını söyləyib. Qız da artıq əsəbləşdiyini hiss edib və ona ”get öz işinlə məşğul ol, mənim dərdimi çəkmək sənə qalmayıb”,- deyə söyləyib.

Vurğulayım ki, həmin qız elə qadınla rastlaşdığı gün redaksiyamıza gəlmişdi və mən onun geyimində heç bir qüsur görmədim. Və elə o saat anladım ki, o qadın hansı qrupun üzvlərindən imiş...

Bu səbəbdən də, əziz qızlar, belələrinin ”şirin” sözlərinə, ”dillərinə” aldanmayın. Onların sizi haraya dəvət etdiyi və orada sizlərin başına hansı oyunların gələcəyi məlum deyil.

Əsla özünüzlə bağlı söhbətlərin açılmasına izn verməyin. Beləlri ilə qarşılaşanda onların boş söhbətlərinə qulaq asmaq belə istəməyin. Çünki o söhbətlərin arxasında nələrin gizləndiyini bilmək olmur.

Onlar sizin iradənizi sınayır. Sizdə iradə zəifliyi görürsə, dilini bir az da şirinləşdirib məqsədinə doğru yola çıxır. Odur ki, harada bu cür insanlarla rastlaşsanız, onların sizinlə dialoqa girməsinə əsla imkan verməyin. Diqqətli olun, çünki məqsəd aydın deyil.

# Rusiyada cevriliş cəhdi ilə bağlı
# MARAQLI MƏQAMLAR

"Vaqner" özəl hərbi şirkətinin çevriliş etmək cəhdləri Kremlin daxilində yaranan hərbi-siyasi çatlardan xəbər verir. Politoloqların, siyasətçilərin bir qismi bu məsələdə Rusiya-Ukrayna müharibəsinin əsas səbəb olduğunu düşünürlər. Ona görə belə düşünürlər ki, sözügedən müharibənin Rusiya daxilində eyni şəkildə qarşılanmadığını yaxşı bilirlər. Bilirlər ki, Ukrayna ilə müharibə səbəbindən Rusiyanın az qala bütün dünyanın rəqibinə evrilməsinə görə rusların hədəfdə olmaları, sanksiyalar altında yaşamaq məcburiyyətində qalmaları heç də hamının ürəyincə deyil. Hətta siyasətçilərin bəzilərinə görə, Qərb də bu məqamdan sui istifadə edir.

Diqqətə çatdırmaq yerinə düşərdi ki, "Vaqner"in rəhbəri Yevgeni Priqojin müdafiə naziri Sergey Şoyquya və Baş Qərargah rəisi Valeri Gerasimova qarşı hər zaman qəzəbli olub və qəzəbini də heç zaman gizlətməyib. Hadisələrə doğru istiqamətdən, real görüntünü əks etdirən rakursdan baxanda bəlli olur ki, məsələnin kökü daha dərinə gedib çıxır. O da üzə çıxır ki, Ukrayna ilə müharibə fonunda Rusiyanın taktiki məğlubiyyətlərini kompensasiya edən "Vaqner" Priqojinə daha böyük səlahiyyət və vəzifə üçün yollar açmağa şərait yaradıb və bu gün hakimiyyət komandasında istənilən səlahiyyətliyə qarşı çıxmaq üçün kifayət qədər əsas yaradıb. Əks halda hadisələrin bu həddə qədər qızışacağı heç də mümkün görünə bilməzdi. Daha dəqiq desək, Priqojin üçün yaranan münbit şərait ona cəsarət verib və hətta siyasi hakimiyyətə qarşı çıxmasına qədər ona cəsarət verib, onu cəsarətləndirib.

Etiraf etmək lazımdır ki, Rusiya Müdafiə Nazirliyində rəhbər dəyişikliyi ilə bağlı Priqojinin tələbi heç də təsadüfi, yaxud səbəbsiz deyil, onun Rusiya elitasında avtoritetinin, nüfuzunun olması ilə bağlıdır. İndi Priqojinin bu şəkildə hakimiyyətə qarşı çıxmasının arxasında hansısa ambisiyalarının dayandığını təkzib etmək də yanlışlıq olardı. Kim bilir, bəlkə elə o özü Şoyqunun postuna iddialıdır. Yaxud kim deyə bilər ki, onun ambisiyaları Rusiya prezidenti səviyyəsinə qədər qalxmayıb. Yəni, təkzib edə bilər ki, ümumiyyətlə Priqojin, Rusiya Prezidenti Vladimir Putini devirib onun kreslosunda əyləşməyi də planlamayıb. Bəlkə elə Priqojin məhz Rusiya elitasında öz nüfuzuna istinadə edərək, arxalanaraq ölkənin prezidenti kürsüsünə Putini deyil, məhz özünü layiqli hesab edir və bəlkə elə buna çalışır.

Doğrudur, Rusiyanın siyasi-hərbi hakimiyyəti ilə "Vaqner" özəl hərbi şirkəti arasındakı qarşıdurmanın fonunda kimin ölkə maraqlarına xidmət etdiyi barədə hələlik mübahisəli fikirlər var. Çünki hər iki tərəf özünü haqlı olaraq görür və istər Priqojin, istərsə də Rusiyanın Müdafiə Nazirliyi prosesləri istədikləri istiqamətə doğru, öz maraqlarına tərəf çəkməyə çalışır. Bütün bunların fonunda hələ də "Vaqner" özəl hərbi şirkətinin, yoxsa Rusiyanın hərbi rəhbərliyinin həmin ölkənin maraqları üçün çalışdığı barədə sual yaranır və vəziyyət müəmmalı hesab olunur. Nəinki dünya ictimaiyyəti, hətta Rusiya vətəndaşlarının özləri belə bununla bağlı tərəddüd içərisindədir və Putinin xalqa müraciəti də bu baxımdan heç də təsadüfi sayıla bilməz.

Diqqət çəkən ən maraqlı məqam Rusiya prezidenti Vladimir Putinin xalq müraciəti zamanı öz dostu Priqojinə xəyanətkar damğası vurmasıdır. Bu məqam Qərb mediasının da diqqətindən yayınmayıb və bir çox mənbələr bunu bəzi mətləblərə aydınlıq gətirilməsi baxımından xarakterizə etməyə çalışırlar. Qeyd olunur ki, əgər Putin öz dostunu xəyanətkarlıqda ittiham edirsə, deməli, şəxsən özü Priqojinin bu addımından ən azından ehtiyatlanır. Hətta bəzi mənbələrdə qeyd olunur ki, Priqojinin hakimiyyəti ələ keçirmək şansının olmasını Rusiya prezidenti başa da düşür, qəbul da edir. Bu baxımdan onun məhz öz keçmiş dostunu xəyanətkar damğası ilə damğası məsələsinə tam təbii hal kimi, eləcə də normal təzahür kimi yanaşanlar da var.

Bəli, xalqına müraciəti zamanı Rusiya prezidenti Vladimir Putinin əsəbiliyi açıq-aşkar hiss olunurdu. Onun necə gərgin vəziyyətdə olduğu da görünürdü. Hər halda, bir ölkənin prezidentinin mimikalarından, ritorikasından, eləcə də səs tonundan onun həyəcanlı və gərgin olduğu hiss olunursa, bu təsadüfi sayılmır və sözsüz ki, Qərbin də diqqətindən yayına bilməz. Heç yayınmayıb da. Qərb mediası məxsusi olaraq bu məqamı vurğulayaraq, Rusiya prezidentinin gərgin olmasına diqqəti yönəltməyə çalışır. Məqsəd də bəllidir və Qərb indi də Priqojinə qarşı Putinin qəzəbli olduğunu ön plana çəkməklə, hansısa planlar üzərində işləyir və yenə də hədəf əvvəlki kimi eynidir.








Heç şübhəsiz ki, Rusiyanın hakimiyyətdə olan hərbi-siyasi elitasında da parçalanmalar var və "Vaqner" özəl hərbi şirkətinin öz silahlarını Moskvaya tuşlamasından Putinin daha çox narahatçılıq keçirdiyi də buna görədir. Hətta Rusiya prezidentinin məlum hadisələri daxili təlatüm kimi qiymətləndirməsi və həmin hadisələrə qarşı lazımi tədbirlər görüləcəyini açıqlaması da məhz bu səbəbdən ola bilər. Əks halda keçmiş dostunun bu addımı Putini müşahidə edilən qədər gərgin vəziyyətə salmazdı. Belə bir ehtimal da var ki, Rusiya ordusunda bir qrup məhz Priqojinə təlimatlar verərək onu yönləndirə bilər və nəticə əldə edəcəyi təqdirdə idarəetmədə ona müstəsna səlahiyyətlər vəd oluna bilər. Ordudakı bəzi birləşmələrin "Vaqner" tərəfə keçməsi barədə məlumatlar da bu ehtimalın mümkünlüyünü sübut edən məqamlardandır. Elə Vladimir Putinin öz müraciətində qüvvələrin hakimiyyət əleyhinə olmaqdan çəkinməri barədə çağırışları da deyilənləri təsdiq edir və həmin ehtimalın doğru olması barədə əminlik yaradır. Əks halda Rusiya prezidenti bu qədər gərgin və bu qədər həyəcan içərisində olmazdı.

Rusiyada cərəyan edən hadisələr hətta vətəndaş müharibəsi təhlükəsinin olma riski də yaradır. Hətta vətəndaş müharibəsi olmasa belə, bu şəkidə olan bir vəziyyətdə də Rusiya risk altına düşür. Əvvəla, bu vəziyyətdə Rusiya Ukraynadakı əməliyyatlarda istədiyi kimi fəal ola bilməyəcək, çünki diqqət daxili vəziyyətə yönələcək. Digər tərəfdən də ölkədə belə bir vəziyyətin olması Ukraynanın öz əks hücum əməliyyatlarını sürətləndirməsi, intensivləşdirməsi üçün münbit şərait yaradır. Ukrayna tərəfi güman edə bilər ki, belə bir vəziyyətdə Rusiyanın cəbhə xəttindəki müdafiə qüvvələrini parçalamağa, bölməyə imkan qazanıb və bundan istifadə etməyə qalxar. Bu isə Rusiyanın indiki halı üçün heç də arzuolunan deyil və hətta acınacaqlı durum belə yarana bilər.

Bilirik ki, Putin əlindəki səlahiyyətlərdən istifadə edərək ən sərt üsullar tətbiq olunmasını istəyə və bu barədə əmr verə bilər. Əslində, bu, gözləniləndir də. Məsələn, Putin yaranmış vəziyyətdən yararlanaraq hakimiyyət daxilindəki rəqiblərinə qarşı təmizləmə əməliyyatına da başlaya bilər. Belə bir vəziyyəti fürsət kimi dəyərləndirərək hakimiyyətini möhkəmləndirmək niyyəti ilə onun yeni rıçaqlar əldə etmək istəyi baş qaldırar. Bununla o hətta rusları vahid dövlət ətrafında birləşdirmək ideyalarına hər kəsi inandıra bilər. Ümumiyyətlə, Rusiya prezidentinin heç də əl-qolunu sallayıb vəziyyəti sadəcə müşahidə edəcəyi düşünülmür. İstənilən halda müqavimət göstəriləcəyi təkzib edilə bilməz. Hətta bu mübarizədən Putin qalib çıxsa, Priqojini həm də Qərbin təlimatlarını yerinə biri kimi təqdim edə və xəyanətkar olması barədə fikirlərini əsaslandıra bilər. Bir sözlə, Rusiya prezidenti öz keçmiş dostunu ələ keçirsə, qətiyyən onu bağışlamayacaq və hətta öz məqsədlərinə xidmət edən fikirləri də dövriyyə buraxaraq Priqojindən istifadə edəcək. Yox, əgər bacarmasa, heç şübhəsiz ki, onunla danışıqlara getməli, hətta razılaşmalı olacaq. Sözsüz ki, istənilən hər bir halda Putin rıcaqları Priqojinə verən deyil və vəziyyəti öz xeyrinə dəyişməyə çalışacaq.

Rusiyada baş verən hadisələrlə bağlı digər bir maraqlı məqam hadisələri Qərbin çox həssaslıqla izləməsidir. Qərb, əlbəttə ki, Rusiyada baş verən məlum hadisələrin, qarışıqlıqların regional məsələlərə təsirlərini də ölçüb-biçir. Məhz bu ölçü-biçisi ilə də çox güman ki, Moskva üçün müvafiq ssenari də hazırlayır. İndi Qərbin əlinə Priqojin elə bil göydən düşüb və rəsmi Moskvanın ambisiyalarını azaltmaq üçün ondan yetərincə istifadə edə bilər. Bu məqsədlə Priqojinə müxtəlif təkliflər də oluna bilər. Etiraf edilməlidir ki, Priqojinin özü üçün də Qərbin təklifləri maraqlı gələ bilər, çünki öz əlini gücləndirməsi üçün dəstəyə ehtiyac duyar. Elə bu vəziyyətdə, yəni Qərblə qarşıdurma vəziyyətində, sanksiyalar, təzyiqlər fonunda Putini də gərgin vəziyyətə salan məqamlardan biri də məhz budur. Amma qeyd etdiyimiz kimi, hələ konkret fikir bildirmək, hadisələrin nə ilə nəticələnəcəyini indidən proqnozlaşdırmaq mümkün deyil və yenə də hansısa maraqlı məqamlar ortaya çıxa bilər, hansı ki, hadisələrin gedişinə ciddi şəkildə təsir edər.

***İnam Hacıyev***

# Qadasın alım gəlinimin...

**İstədim ki, səhlövhəni dırnaqda yazam, lakin düşündüm ki, haqsızlıq etmiş olaram. Həqiqətən də bu ifadəni səmimiyyətlə söyləyən və sonadək də eyni fikirdə qalan qayınanalar var. Yəni səhv başa düşülməsin, qadan alım deməklə, kiminsə qadası sənə gəlmir, lakin arada dünya boyda bir səmimiyyət yaranır. Biz əslində, hər gün övladlarımıza minlərlə dəfə qadan alım demirikmi? Gəlin-kürəkən necə, bizim övladımız deyilmi? Bax elə söhbətimiz də bu məsələ ilə bağlıdır.**





Təəssüflər olsun ki, aramızda minlərlə qayınana var ki, gəlini yad qızı, kürəkəni yad oğlu hesab edir. Belə olan halda "qadasın alım gəlinimin " ifadəsini əlbəttə ki, dırnaqda yazmağa məcburuq. Çünki bu sözlər söz xətrinə deyilən, toyda mikrofona söylənən, əslində isə bəzi qaynanalar tərəfindən əsla qəbul edilməyən kəlmələrdir. Bu sözlər çox halda elə toy salonlarında qalan, o salonların qapısından çıxıb evlərə doğru yol almayan sözlərdir. Göstəriş üçün deyilən, lakin əslində qəlbin qəbul etmədiyi sözlər...

Odur ki, gəlin-qayınana münasibətlərinə qayıdaq, günümüzdə minlərlə ailənin probleminə çevrilən bu münasibətlərə yenidən bir nəzər salaq. Belə bir sual qoyaq ortaya ki, nə üçün gəlin-qayınana münasibətləri öz həllini tapa bilmir? Axı bu problemin üstündə dünya səviyyəli məsələlər həll olunub, bitib.

ARAŞDIRMA

## Nə qədər ki...

Gəlin-qayınana münasibətləri əsrlərin çözülə bilməyən problemidir. Bu münasibətlər ona görə həllini tapa bilmir ki, burada dərin köklər, yəni düşüncə tərzi var. O düşüncələr ki, illərlə özündə dəyişiklik edə bilmir ki, münasibətləri də tənzimləsin.

Həmin düşüncə tərzinin əsasını qayınanaların gəlini və kürəkəni yad hesab etməsi təşkil edir. Elə bu səbəbdən də digər problemlər meydana çıxır. Öz doğma balasının həyat yoldaşını yad hesab etməklə bəzi analarımız doğru olmayan yola qədəm qoyurlar ki, bu da qarşıda bütün problemlərin yaranma səbəbi olur. Hansı ki, düşünmək çox asandır: balamın sevdiyi, ən yaxını, mənim üçün də balam qədər əziz olmalıdır. Axı balamız o insanla dünyanın ən xoşbəxt insanıdırsa, biz anaların onları yad kimi görməyimiz nə qədər yanlışdır, deyilmi? Necə olur ki, övladımızı göz bəbəyimiz hesab edirik, lakin onun sevdiyini-seçdiyini yox? Axı dərindən düşünəndə övladımız onunla xoşbəxtdirsə, məhz bu fakt bizə yeni bir oğul, yeni bir qız qazandırmırmı?

Təəssüflər olsun ki, bəzi qadınlarımız bu düşüncələrlə qəti şəkildə razılaşmır. Onlar öz qayınanalarının onlara necə münasibət bəsləməsini, hansı gözlə baxmasını əldə əsas tutaraq yollarına o cür də davam edirlər. Nəticədə isə gəlin-qayınana münasibətlərində yaxşıya doğru elə bir dəyişiklik müşahidə olunmur.

Qonşumuzda Gülsüm adlı qadının üç gəlini vardı. Gülsüm xala gəlinləri arasında çox ayrı-seçkilik qoyurdu, böyük gəlinini kiçiklərin, hətta qonşuların da yanında həmişə pərt edirdi. Məhəllədə hamı bunu bilirdi və sözün həqiqi mənasında, onun böyük gəlininə acıyırdı. Bir dəfə qonşulardan biri ondan nə üçün belə etdiyini soruşanda, Gülsüm xala dedi ki, məndən artıq deyil ki, qayınanam bilirsiniz başıma nə qoyunlar açıb. Mən hələ buna nə edirəm ki?..

Sual verən qadın isə ona cavabında dedi ki, deməli, sən öz qayınananın acığını bu yazıq gəlindən çıxırsan? Gülsüm xala susdu və fikrə getdi.

Düşünürəm ki, Gülsüm xalakimilər tək qayınanalarının onlara münasibətini təkrarlamır, onların gəlinləri ilə münasibətlərində fərdi xüsusiyyətləri də böyük rol oynayır. Əgər bir qadının qəlbi yumşaqdırsa, səmimidirsə, ona qayınanası nə qədər zülm versə də, o, bu zülmü gəlininə verə bilməz. Odur ki, bu qənaətə gəlmək olar ki, qayınanalıq bir xarakter göstəricisi, nümayişidir.

## Belə qayınanalar var...

Baxmayaraq ki, toy salonunda özünü toya dəvət etdiyi qadınlara göstərərək mikrofonu müğənnidən alıb "qadasın alın gəlinimin" mahnısının bir misrasını da özü səsləndirir, amma həyatda həmin qayınanaların tam real üzü ilə qarşılaşırıq. Az tanımırıq ki, "mən onun niyə qadasını alıram ki, belə qadam gəlinin ürəyinə" deyən qayınanaları.

Belə qayınanalar təbii ki, ailədə söz-söhbətin də yaradıcılarıdır. Düşünəndə ki, evinə gətirdiyi gəlin onun öz qızı ilə yaşıddır, çox halda qayınanaları günahkar hesab etməyin yeri var. Çünki qızının bütün səhvlərini ona necə başa salırsansa, bağışlayırsansa, bilmədiyini öyrədirsənsə, səhv oturuşuna-duruşuna səmimi münasibətlə yanaşırsansa, gəlininə də eyni münasibət bəsləməyən qadınlar günahkardır.

*Ardı Səh. 13*



**Elçin Bayramlı**

# İtirilmiş nəsil

**Son dövrlərdə gənclərin kriminal aləmə, radikal dini qruplaşmalara, kosmopolitizmə, yad dəyərlərə meyili artıb. Bunların çox sayda fundamental səbəbləri var. Cəmiyyətin quruluşu, psixoloji-mənəvi aurası, sosial-iqtisadi vəziyyəti əsas səbəblərdəndir.**

Əvvəla gənclərin enerjilərini xərcləyəcək yerləri olmalıdır. Sovet dövründə gənclər idmana, yaradıcılıq fəaliyyətinə, texniki mərkəzlərə pulsuz şəkildə cəlb edilirdi. O zaman gənclər asudə vaxtlarını səmərəli keçirirdilər. Onların zərərli meyillərə vaxtları da qalmırdı, cəmiyyət və dövlət isə onlara belə şərait yaratmamışdı da.

İndi əhalinin azı 80%-nin imkanı yoxdur övladlarını belə mərkəzlərə göndərsin. Qiymətlər çox bahadır. Ən ucuz idman və ya yaradıcılıq kurslarının aylıq abunə haqqı 50-100 manat arasındadır. Bir ailədə orta hesabla 2-3 uşaq olduğunu nəzərə alsaq, bu, orta statistik azərbaycanlı üçün əlçatan deyil. Nəticədə, boş qalan yeniyetmələr, gənclər zərərli şeylərə meyil edirlər. Bura narkomaniya da daxildir. Kütləvi şəkildə yayılan belə gəncləri əlimizdən alır. Belə görünür ki, cəmiyyət, dövlət də bunun qarşısını almaqda maraqlı deyil. Əks halda gənclərin birini belə boş buraxmazdıq.

Uşaq və gənclərin mənfi meyilləri məktəblərdə də müşahidə olunur. Şagirdlər məktəbə kitabla yox, smartfonla gəlir. Qızlar kosmetika ilə, oğlanlar bıçaqla, təsbehlə. Təhsil ocaqlarının əlindən tərbiyə funksiyası alınıb. Təhsilin başında yararsız eksperimentlər aparılır. Güya, şagirdyönümlü təhsil sistemi qururuq. Buna görə də məktəblərdə anarxiya yaranıb. Nəticə özünü göstərir.

Gənclər internetdəki biabırçı fəaliyyətlərinə real həyatda da davam edirlər. Bir çox valideynlər övladlarını kiçik yaşdan talehin ümidinə buraxıb. Hər azyaşlının əlində bahalı smartfon var. İnternetdən yaşlarına uyğun olmayan, zərərli materiallara baxırlar. Psixologiyaları altüst olur. Təsir altına tez düşürlər.

Valideynlər psixoloqların dedikləri cəfəngiyyatları kənara atıb, uşaqlara köhnə qaydada tərbiyə verməlidirlər. "Uşağa döymə", "azadlıq ver" deyərək, ortaya belə kütlə çıxarmışıq. Bu da xalqın gələcəyinin indidən məhv edilməsi deməkdir. Media kriminal seriallar, axmaq şoular, zərərli verilişlər nümayiş etdirir. Əvvəllər televiziyalarda uşaqlar, gənclər arasında intellektual yarışlar olurdu. İndi AzTV-dən başqa heç bir kanalda bunu görmürük. AzTV-dəki belə verilişlərə isə valideynlər uşaqlarını baxdırmırlar. Başqa kanallarda intellektual verilişlər demək olar ki, yox dərəcəsindədir- İTV istisna olmaqla. Əvəzində onlara fasiləsiz əyləncə, arsızlıq, eqositlik, özünəvurğunluq, maddiyyata tapınma, pulun yeganə dəyər olduğu təbliğ olunur.

Məktəblərdə baş verənləri, uşaq cinayətlərinin, narkomaniyanın ildırım sürəti ilə artmasını görürük. Belə çıxır ki, biz bunları gördüyümüz halda qarşısını almağa ya maraqlı deyilik, ya da acizik. Maraqlı olsaydıq, tədbirlər görərdik. Əksinə, "müasirlik", "azad cəmiyyət" deyərək, "kim nə istəyir etsin" prinsipi ilə hərəkət edirik.

Kitab oxuyan, teatra, muzeyə gedən uşaq, gənc görürsünüz ətrafınızda? Demək olar ki, yox. Bu halda hansı sağlam gənclikdən danışmaq olar?

Əmin olun ki, azı 80% gəncin mənəvi, mədəni irsimizdən xəbəri yoxdur. Böyük tarixi şəxsiyyətlərimizdən, dünyanın bu gün də öyrəndiyi alimlərimizdən, filosofşairlərimizdən, tariximizdən, mədəniyyətimizdən bixəbərdilər. İnanmırsınız çıxın küçəyə qarşınızdan gələn 20 gəncə bir neçə sual verin və cavablara baxın. Bu, min illərlə gələn milli-mənəvi dəyərlərimizin qırılma nöqtəsidir. Bundan sonra gələn nəsil sanki bizə aid deyil. Azərbaycanlı olmaq xüsusiyyətini itiririk.

Ümumən, cəmiyyətin ab-havası sonrakı nəsilləri formalaşdırır. Bunların günahkarı indiki uşaqlar, gənclər deyil. Günahkar bizim nəsildir. Biz cinayətkar nəsilik. Çünki özümüzdən sonra gələnlərə mənəvi, milli dəyərləri, əxlaqı sistemi ötürə bilmədik. Biz bunu bacarmadıq. Ona görə də, indi uşaqlar, gənclər yad ideologiyalarla böyüyürlər.

Nəsə edə bilərikmi? Əlbəttə! Sadəcə, etmək istəmirik. İstəsək, hər şey etmək olar. Gənclərlə bağlı xüsusi dövlət proqramı olmalıdır. Cəmiyyət isə özünə gəlməlidir. Azadlığın anarxiya demək olmadığını artıq həm əyani, həm qiyabi olaraq görmüşük. Əgər sağlam gələcək istəyiriksə, bu işlərə dünəndən başlamalıyıq. Çünki artıq az qala gecdir.

Əvvəli Səh. 12

# Qadasın alım gəlinimin...



Qayınanalar var ki, adam onlar haqqında eşidəndə, dəhşətə gəlir. Adının yazılmasını istəməyən "M" adlı gəlin deyir ki, üç ildir ailə qurmuşam. Qayınanamgillə bir evdə yaşayırıq. Nişanlı vaxt gördüyüm qayınana ilə o evə gəlin getdiyim gündən etibarən gördüyüm qayınana arasında yerlə-göy qədər fərq var. Birinci gündən qayınanam qayınanalığını göstərməyə başladı. Əlini ağdan-qaraya vurmadı. Bütün işləri mənə həvalə etdi. Dedi ki, 40 ildir işləməkdən birtəhər olmuşam, indi ta mənim istirahət vaxtımdır.

Nə edə bilərdim ki, dediyi kimi də elədim. Mən ya bunu qəbul etməliydim, ya da çıxıb atamın evinə getməliydim. Anamla məsləhətləşdim, dedi ki, iş görməklə adam ölmür, başını sal aşağı, işini gör. Bir adımızı iki etməyəcəyik ki...

Mən də anam necə dedisə, elə etməyə başladım. Lakin qayınanam heç bir işimi bəyənmədi ki, bəyənmədi. Evi təmizlədim, bəyənmədi, yemək hazırladım, bəyənmədi, paltar ütülədim, bəyənmədi. Mən isə anamın tövsiyəsi ilə susmağa davam edirdim. Bəlkə bu, bir imtahandır, bir gün bitəcəyini həsrətlə gözləməyə başladım. Lakin qayınanamın dedi-qodusu bitmək bilmir. Axşam yoldaşım işdən gələn kimi başlayır deyinməyə ki, qız içindən qız seçmisən, bəxtəvər başıma, əlindən bir iş gəlmir. O da qalır anası ilə mənim aramda. Hələlik, bu cür davam edirik, görək nə vaxtadək...

"A" adlı qadın söyləyir ki, 5 ildir ailə qurmuşam. Qayınanamla birlikdə yaşayıram. İşləmirəm. İki övladım var. Səhərdən-axşama kimi ev işləri ilə məşğulam. Özü də bəzi işləri görür. Məsələn, yeməyi yalnız özü hazırlamağı sevir. Qalan bütün işləri isə mən görürəm. Mənim problemim iş görmək deyil. Görməliyəm də. Öz evimizin işidir də. Həm də o qədər eləmişəm ki, artıq iş mənim üçün adiləşib. Problemim odur ki, qayınanam imkan vermir ki, ya özümə, ya da uşaqlarıma öz zövqümlə bir paltar alım. Yoldaşımla alış-verişə gedirik. Orada nə isə bəyənib ala bilmirəm. Gərək şəklini göndərək qayınanama, baxa, bəyənsə, deyə ki, alın. Bu barədə bir neçə dəfə yoldaşıma şikayət etmişəm. O da qalır çıxılmaz vəziyyətdə. Deyir ki, bir söz desək, problem yaranacaq. Nə deyir, gəl, onu da edək. Beləliklə qaynanam düşünür ki, bu, elə bu cür də olmalıdır. Biz onun zövqü ilə geyinməliyik. Mən bu məsələdə yoldaşımı daha çox qınayıram. Çünki o, bir dəfə ağzını açıb mənim haqqımı tələb edə bilmir. Bu, nə vaxtadək belə sürəcək, anlaya bilmirəm.

"P" adlı qadın isə deyir ki, qayınanamla birlikdə yaşayıram, 6 ildir ailə qurmuşam. Onunla münasibətlərimizin tək birindən söhbət açmaq istəyirəm. Çünki demədiklərim dediyimin yanında o qədər adiləşib ki... Deməli, mən bu evə gəlin gələndən nə bir ad günü, nə bir nişan, toya gedə bilmirəm. Bütün dəvətlərə qayınanam gedir. Sanki belə olmalıdır kimi hər dəfə hazırlaşır, düşür yoldaşımın yanına, gedirlər. Bu barədə anama danışdım. Anam dedi ki, gedir, gedir də. Buna görə ailənə söhbət salmayacaqsan ki... Evdə qayınım var. Anam deyir ki, inşallah, o evlənər, siz ayrı evə çıxarsınız, onda hər şey öz qaydasına düşəcəkdir. Mən də əlacsızcasına həmin günü böyük səbirlə gözləyirəm. Lakin bircə ona təəssüf edirəm ki, yoldaşım bir dəfə də anasına demir ki, ay ana, qoy bu dəfə də "P" ilə gedim. Mən də qüruruma sığışdırıb əsla bu söhbəti açmamışam və açmayacağam.

Bəli, əsla yuxarıda haqqında danışdığımız qayınanalar kimi olmayan qadınlarımız da var. Bunu hər birimiz gözlərimizlə görmüşük, müşahidə etmişik. Lakin təəssüflər olsun ki, bu cür qayınanalar daha çoxdur. Və onlar öz qızları ilə yaşıd olan gəlinlərini incitməyə, alçatmağa, hüquqlarını tapdamağa davam edirlər.





## Bəs nə vaxtadək?..

Gəlin etiraf edək ki, indi gənclərin ayrı yaşamaq arzusu da əsrlərdir, bitməyən gəlin-qayınana münasibətlərinə görədir. Çünki qızlarımız sosial şəbəkələrdən, qohum-qonşulardan qayınanalar haqqında o qədər məlumat alırlar ki, bəri başdan onunla birlikdə yaşamaqdan boyun qaçırır, ayrı olmağı düşünürlər. Bəlkə də bəzi qayınanalar mənimlə razılaşmayacaq. Axı biz alışmışıq bütün hallarda özümüzü təmizə çıxarmağa. Lakin mənimlə razılaşanlar daha çox olar ki, gəlin-qayınana münasibətlərində qayınanalar daha çox günahkardır. Çünki haradan baxsaq, yaş fərqi ortadadır. Gəlin qayınanadan 25-30, bəzən isə daha çox kiçik olur. Elə bunun özü onu deyir ki, kimdir günahkar.

Söz yox ki, gəlinlər də, kürəkənlər də özlərindən böyük olanların hər birinə hörmətlə, sayğı ilə yanaşmağa borcludurlar. Onların qayğısını çəkmək, xəstə olanda maraqlanmaq, müalicəyə aparmaq, istəklərini həyata yetirmək də onların borcudur. Lakin gəlin-qayınana, kürəkən-qayınana münasibətlərini onlardan yaşda, təcrübədə böyük olan qayınana tənzimləməlidir. Maraqlıdır, nə üçün gəlin-qayınata, kürəkən-qayınata münasibətləri əsla dilə gəlmir. Yalnız bu söhbətlərdə qayınanaların adı hallanır? Deməli, məsələ aydındır. Kim söhbətin içərisindədirsə, təbii ki, onun da adı hallanacaq.

Həqiqətən də, bəs nə vaxtadək münasibətlər bu cür davam edəcək? Biz qadın olaraq nə vaxtadək gəlinimizi, kürəkənimizi qızımızdan, oğlumuzdan seçəcəyik? Bu gün ölkəmizdə evlənmə sayı ilə boşanmaların arasında uçurum var. Bu boşanmaların əksəriyyəti ailə münaqişələrinə görədir. Bəs bir qayınana bu boşanmaya səbəbkar olursa, heç vicdan əzabı çəkirmi?

Sosioloq Leyla xanım bu barədə belə deyir: Boşanmalarda başlıca səbəb ailə münaqişələridir. Bu münaqişələrin əksəriyyəti isə gəlin-qayınana münasibətlərinə söykənir. Qayınana düşünür ki, mən haqlıyam, gəlin isə düşünür ki, mən haqlıyam. Bəzən həyat yoldaşı kənarda qalır. Hadisələrin içində əsla olmur. Boşanmalara yol açan qadınlar olur. Biri digərindən 25-30 yaş böyük və ya kiçik olan qadınlar. Lakin hər bir ana övladını düşünməlidir. Onun ailəsini öz qızının ailəsini necə qoruyursa, elə də qorumalıdır. Çünki ailə qurmaq, övlad sahibi olmaq asan məsələ deyil. Ailə dağıtmaq yox, ailəni qorumaq çətindir. Odur ki, qayınanalara gəlinlərinə bəzi hallarda güzəştə getməyi, gəlinlərə qayınanalarına qarşı hörmətli, sayğılı olmağı arzulayaq.

## Biz mehriban ailəyik

Dünyanı sevgi ilə yanaşı, səmimiyyət, mehribanlıq xilas edə bilər. Bunu hər birimiz bilə-bilə münasibətsizlik yaradırıq bəzən. Süleymana qalmayan dünyanın bizə qalacağını fərz edirik. Lakin bu dünya bizim olmur. Dünyada saxladığımız münasibətlər, savab əməllərimiz, mehriban davranışlarımız, səmimiyyətimiz qalır. Biz bu vəfasız dünyadan köçəndən sonra yalnız gözəl keyfiyyətlərimizlə anılırıq. Övladlarımız, gəlin-kürəkənlərimiz, qonşu-qohumlarımız bizləri ya gözəl insan kimi anır, ya da pis əməllərimizlə əsla xatırlamaq istəmir. Bax, həqiqətən dərindən düşünəndə bu iki yoldan birincisini seçərik. Bəs belə isə seçdiyimizi nə üçün yaşamayaq, onun haqqını verməyək?

Biz o vaxt boşanmaların da qarşısını almış olaraq, ailələrimizdə mehribançılığın təməlini qoya bilərik ki, bu əsrlərin gəlin-qayınana təfəkkürünü təməlindən qaşıyıb ataq, onun yerində yeni bir formul yaradaq: ana-bala formulu. Başqa cür mümkün deyil. Gəlini də, kürəkəni də öz qızımız, oğlumuz olaraq görməyənədək münasibətlərin dəyişməsi mümkün olmayacaq.

Bu münasibətlərin açarı isə biz qadınların əlindədir. "Qadın böyük qüvvədir" kəlamı əsassız yerə deyilməyib. Bəli, qadın elə bir qüvvədir ki, bir çox məsələlərin həllində, tənzimlənməsində onun rolu əvəzsizdir. Buna görə də bu münasibətlərin yeni formaya düşməsi də biz qadınlardan asılıdır.

Bir həqiqət də var ki, əslində, sən övladını sevirsənsə, onun sevdiyini də sevməlisən. Əks halda mən anaların övlad sevgisinə inanmaq istəmirəm. Çünki adama bu sevgi çox məntiqsiz gəlir. Niyə? Məsələn, oğlun bir qızla çox xoşbəxtdir, onu sevir. Sən oğlunu sevirsənsə, deməli, o qızı da sevməli, onu qorumalısan ki, oğlunun xoşbəxtliyi daimi olsun. Eləcə də qızının.

Burada isə belə bir nəticə hasil olur ki, mehriban ailə modelini yaratmaqdan, əsrlərin gəlin-qayınana münasibətlərini kəsib atmaqdan, yerində ana-bala münasibətləri yaratmaqdan başqa çarəmiz yoxdur. Biz məhz bu zaman mehriban ailələrə çevrilə bilərik. Əsrlərdən bəri qoruyub yaşatdığımız ailə dəyərlərimizə töhfə verə bilərik.

Biz övladlarımızın da, gəlin-kürəkənlərimizin də qadasını alaq. "Onlara gələn bizə gəlsin",- deyək. Bu təxəyyüllə yaşayarıqsa, ailələrimizi də qorumuş olaraq. Həqiqətdə isə heç kimin qadasını Ulu Yaradan başqasına vermir. Buna əmin ola bilərsiniz...

***Mətanət Məmmədova***

ANALİTİK+AKTUAL

# Britaniya nəşrindən Rusiya ilə bağlı şok iddia: Ermənistanın əli ilə Azərbaycana qarşı...

## The Express: "Rusiya Ermənistan vasitəsi ilə Azərbaycan boru kəmərlərinə hücum hazırlayır"




£10 OFF WHEN YOU SPEND £50 IN THE FOOD WAREHOUSE the food WAREHOUSE

Desperate Putin planning new assault to disrupt gas flows to Europe

Vladimir Putin plans a new Europe assault by sanctioning the training of Armenian troops to disrupt pipelines that carry gas from Azerbaijan.

By MARCO GIANNANGELI - SUNDAY EXPRESS DIPLOMATIC EDITOR





Cənubi Qafqaz regionunda cərəyan edən son proseslər, xüsusilə, Qərb tərəfindən başladılan yeni siyasi oriyentasiya fonunda Rusiyanın regiondan sıxışdırılaraq çıxarılması cəhdləri növbəti iddiaların yaranmasına səbəb olmağa başlayıb. Əsasən, Rusiyanın Ermənistandakı emissarlarının Moskvadan aldıqları tapşırıqları mənzərəsində fəaliyyətə keçmələri haqqında yayılan məlumatlar kifayət qədər diqqət cəlb etməyə başladıb. İddiaya görə, Rusiyanın prezidenti Vladimir Putinin Avropaya yeni hücumu gözlənilir:

**"Məyus olmuş Rusiya Avropaya gedən qaz axınının qarşısını almaq üçün yeni hücuma hazırlaşır və bu barədə kəşfiyyat mənbələri xəbər verirlər"**

İddiaya görə, Rusiyanın prezidenti Vladimir Putinin Avropaya yeni hücumu gözlənilir: "Məyus olmuş Rusiya Avropaya gedən qaz axınının qarşısını almaq üçün yeni hücuma hazırlaşır və bu barədə kəşfiyyat mənbələri xəbər verirlər".

Böyük Britaniyanın The Express nəşri mövzu ilə bağlı analitik qeydlərində yazıb ki, Rusiya Ermənistanın əli ilə Azərbaycanın boru kəmərlərinə hücum planı hazırlayıb. İddiaya görə, Rusiyanın prezidenti Vladimir Putinin Avropaya yeni hücumu gözlənilir. Bu məsələdə isə Azərbaycandan Avropaya nəql edilən qaz boru kəmərlərinin hədəfə alındığı vurğulanır. Həmin istiqamətdə isə Rusiya tərəfindən erməni silahlı qüvvələrində hazırlıq işlərinin aparıldığı bildirilir.

Britaniya tabloidi iddiasını bu cür irəli sürüb. "Məyus olmuş Rusiya Avropaya gedən qaz axınının qarşısını almaq üçün yeni hücuma hazırlaşır və bu barədə kəşfiyyat mənbələri xəbər verirlər. Vladimir Putin erməni silahlı birləşmələrinin hazırlıq səviyyəsinə gətirilmələrinə sanksiya verib ki, Azərbaycandan nəql edilən təbii qaz boru kəmərlərinə zərbə endirilsin", - The Express yazır.

Nəşr bu məsələdə Çin faktoruna da toxunub. Qeyd edilir ki, belə bir addım çətin ki, Çin liderlərinin xoşuna gəlsin. Belə ki, onlar iqtisadi cəhətdən dağıdıcı münaqişəyə son qoymaq marağındadırlar və "sülh planı" çərçivəsində öz cizgilərini cızıblar. Lakin bu da son deyil...

**NATO-ya bağlı olan yüksək rütbəli nazirləri, habelə alyans silahlı qüvvələrinin komandanları Münxen Təhlükəsizlik Konfransındakı toplantılarında da yaşana bilinəcək vəziyyətin nəticələri ilə bağlı fikir mübadilələri aparıblar**

The Express yazır ki, Putinin planı yalnız Çini deyil, NATO ölkələrini də təlaşlandırıb. Belə ki, həmin plan NATO tərəfindən elektron vasitələrlə ələ keçirilib və eyni zamanda, NATO-ya bağlı olan yüksək rütbəli nazirləri, habelə alyans silahlı qüvvələrinin komandanları ciddi şəkildə narahat edir. Xatırlanır ki, bir neçə ay əvvəl Münxen Təhlükəsizlik Konfransındakı toplantılarında da yaşana bilinəcək təhlükəli vəziyyətin nəticələri ilə bağlı fikir mübadilələri aparıblar.

Tabloidin yazdığına görə, Aİ-nin Rusiyanın qaz tədarükündən imtina etməsi qərarından sonra Azərbaycan Avropa üçün getdikcə daha qiymətli təbii qaz mənbəyinə çevrilməkdədir. Sİ-TAT: "Mənbələrə görə, bunun qarşısını almaq üçün Moskva özünəməxsus xüsusi təyinatlılara Ermənistanda nəzarət altında saxlanılan ayrıca özəl qüvvələr yaratmaq tapşırığını verib. Plan Xəzər dənizinin Azərbaycan sektorundakı Şahdəniz qaz yatağından təbii qazı Türkiyəyə və onun hüdudlarından kənara nəql edən Cənubi Qafqaz boru kəmərinə hücumu nəzərdə tutur.

İkinci mərhələdə Rusiya Ermənistan ordusunun təchizatını artıracaq ki, ondan üstün olan Azərbaycan silahlı qüvvələrinə qarşı dayanmağı bacarsın və Qarabağ regionunu işğal etsin...".

**Yüksək rütbəli məmur deyib: "Kəşfiyyat boru kəmərini klassik boz zona ssenarisi kimi təqdim edir ki, bu ssenaridə Rusiya Avropaya qaz tədarükünü dayandırmağa çalışır, eyni zamanda, inandırıcı şəkildə bunu təkzib edir"**

The Express onu da yazır ki, Moskva Azərbaycanın həm müstəqil, həm də qərbyönümlü siyasi mövqe tutmasından razı deyil. Xüsusilə, Azərbaycanın NATO-Şimali Atlantik əməkdaşlığına daxil olması, eləcə də 1994-cü ildə "Sülh naminə partnyorluq" çərçivə sənədini imzalaması Rusiyanı narahat edir. "Mühüm olaraq qeyd edilməlidir ki, o, Ermənistana olan təsirinin zəifləməsini anlayır. Yüksək rütbəli məmur deyib: "Kəşfiyyat boru kəmərini klassik boz zona ssenarisi kimi təqdim edir ki, bu ssenaridə Rusiya Avropaya qaz tədarükünü dayandırmağa çalışır, eyni zamanda, inandırıcı şəkildə bunu təkzib edir". "Həm Türkiyə, həm də NATO bütövlükdə müdafiə dayanıqlığını gücləndirməli olacaq", - Britaniya nəşri xüsusilə vurğulayıb.

*Afət Tahirqızı*



**Təhmasib Novruzov**

# Ya Əlixa, ya Vəlixa...

**Hələ bir neçə ay bundan əvvəl yazmışdım ki, Dərviş Məstəli şah babamız əlixaları, vəlixaları sarı jiletli geyimlərdə salıb Parisin küçələrinə ki, XIX əsrdə yarım qoyduğu işini başa çatdırsın. Elə həmin yazımda onu da bildirmişdim ki, məbədə, İranda baş verənlər Dərviş babamızı əlindəki işi yarımçıq qoymağa məcbur edə...**

Qorxduğumuz başımıza gəldi. İranın mollaları yolu birmərrə azdılar deyə, Məstəli babamız Parisdəki işini yarım qoyub uçdu İran adlanan proje-dövlətə. Mollaları abıra mindirmək üçün bəzi-bəzi xırda-para əməliyyatlar keçirib, mollaların köpünü aldı. Amma çox dərinə getmədi, getməyəcəyi də əvvəlcədən bəlli idi. Nə qədər olmasa, onlar da müsəlman adı daşıyır və guya "islam" dövlətidir axı! Xülasə, mollaları bir az abıra mindirəndən sonra, baxdı ki, Makaron Vermeşilyan yenə qırmızı xətti keçdi. Kişinyovda keçirilən beştərəfli görüşdən sonra başladı sarsaqlamağa. Adama deyərlər ki, a məndeyən, o görüşə səni qonaq elədilər ki, gəlib gördüklərini dünyaya faş edəsən? Ya da erməni diaspora başbilənlərinə zəng vurasan ki, Paşinyan məni eşitmir, Azərbaycanla razılığa meyllənir? Adam kişi olar, onu adam bilib buraxdılar bu görüşə, gördüyünün üstünə də beşini qoyub şivən qopardı. Soğan yemiş adam kimi içinin göynərtisini ora-bura boşaltdı və Dərviş babamız da bunu görüb vaxt itirmədən əlixaları, vəlixaları, məlixaları yığıb başına, üz tutdu yenə Parisə. Bu firənglərin başçısı adlanan, de-fakto ermənilərə dədəlik edən Makaron Vermeşilyana bu dəfə əməlli-başlı dərs verməyə qərarlı olduğunu ilk gündən göstərməyə başladı. Makaron elə bildi ki, bu da ötəri bir oddu, bir az isidib gedəcək. Sonra gördü ki, yox, bu, o oddan deyil. Onu qısnayıb qazanın küncünə, elə qovurur ki, odun təsirindən cızdanı çıxır. İmanım allah amanatı, amma deyəsən Dərviş babamız təkcə bizim qisasımızı almağa gəlməyib Parisə.

Axı parislilər o qədər xalqlara o qədər haqsızlıqlar eləyiblər ki, bizimki onların yanında toya getməlidi. Məsələn, Afrikada nə qədər millətə qan uddurub. Təkcə Əlcəzairdə milyon yarım müsəlmanı qanına qəltan eləyən də firənglərdi. Liviyada, Konqoda, Sudanda, Çadda at (oxu: tank!- T.N.) oynadıb (oxu: sürdürüb!- T.N.) milləti əzikləyən də firənglərdi. Deyək ki, bunlar müsəlmandı, firənglər də növbəti "xaç yürüşü" edirdi. Bəs Korsika? Korsikalılar ki, firənglərlə eyni dinə, eyni soy-kökə mənsubdurlar! Deməli firənglər üçün nə millət, nə din, nə də ideologiya-flan maraqlı deyil. Onların bir maraqları var:pul-para! Kimi lazım gəlsə qanına qəltan edər, kimi lazım gəlsə əzikləyər, taki, ordan pul çıxsın.

Bunlar məlum. O zaman bu ortası deşik Makaronun fısıldaya-fısıldaya Qafqazda nə ölümü? O qədər ağılsızdı ki, burda haylardan başqa ona boyun əyəcək millət olmadığını qanmır? Hayların da beş-altı yüz mini Marselldə, Parisin qulağının dibində. Deyən gərəkdir ki, zıvıdı oğlu zıvıdı, hayları belə çox sevirsən, Marselli elə ikinci hay dövləti, oturt dizinin dibində. Ta niyə Atlantikanın yanından burnunu Qafqaza uzadırsan ki, gərək burda bir hay dövləti də yaransın? İkinci dünya müharibəsində Hitlerin qabağında 40 gün dözüş gətirə bilməyən firənglər, Amerikanın, İngiltərənin sayəsində yenidən dirçəldi. İndi o qədər qudurub ki, özünü ABŞ-la, Böyük Britaniya ilə bir biçimdə görməyə başlayıb. Nə var, nə var, Çinlə, Rusiya ilə birgə ABŞ-la Britaniya bunları da soxdular BMT-nin TŞ-sinə. İndi dünyanın təhlükəsizliyini təmin etməli olan firənglər olublar xırda xalqlara təhlükə yuvası. Harda bir iğtişaş var, harda bir çaxnaşma var, orda dərhal Makaronun sivri burnu görsənir. Bir sözlə, firənglərin sayəsində Təhlükəsizlik Şurası dönüb olub Təhlükə Şurası. Bütün bunları da Dərviş babamız Məstəli şah görür axı! İki yüz ildi bunlara ha dərs verir, qanmırlar ki, qanmırlar. Elə deyirlər "Ağa Nəzərəm, belə gəzərəm"! Di hı! İndi cavab ver Dərviş babaya. Bu dəfə Parisin altını üstünə elə çevirəcək ki, inşallah, Makaronun yeraltı tunelləri də onu xilas edə bilməyəcək.

P.S. Düzdü, yanıb-yaxılıb Makaronun cəmdəyinə döşüyürük. Amma haylara, yəni bizim əzəli düşmənlərimizə, bu gün ən çox pisliyi də elə onun elədiyini bilməliyik. Hayları qızışdırıb salır ortalığa ki, Sülh-flan olmasın, təzədən müharibə başlasın və guya Qarabağı təzədən işğal edəcəklər. Haylara şəhadət barmaqla orta barmağın baş barmağı ortaya almasını xatırladıb, bildirirəm ki, firənglərin bu küyünə getsələr, heç o qondarma proje-dövlətlərini də saxlaya bilməyəcəklər. İnanmırsınız? Onda gedin Makaronun küyünə!

# Uşaqlar bizi bağışlamayacaq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## Döyülən, əməyi istismar edilən, təcavüzə məruz qalan uşaqlar...





Dünyada yaşanan bütün texnoloji və sosial inkişaflara baxmayaraq, biz hələ də uşaqların fiziki, əqli və mənəvi cəhətdən istismar edildiyinin şahidi oluruq. Xüsusən də, münaqişələrin intensiv olduğu bölgələrdə ən çox zərər çəkənlər uşaqlardır. Həyatlarının lap erkən illərində müharibənin nə demək olduğunu görən və ən çox zorakılığa, istismara, təcüvüzə məruz qalan uşaqlar gələcəkdə yaşadıqları travmaların təsirini bütün həyatları boyunca öz çiyinlərində daşıyırlar.

1989-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş Uşaq Hüquqları Konvensiyası uşaqların hüquqları ilə yanaşı minimum həyat şərtlərini də müəyyən edir. Bu konvensiya, ayrı-seçkiliyə yol verilməməsi, uşağın hüquqlarını ümumiləşdirən dörd əsas prinsip əsasında hazırlanıb. Bu kontekstdə münaqişə bölgələrində yaşayan uşaqların vəziyyəti bu razılaşma ilə tamamilə ziddiyyət təşkil edir. Konvensiyada aydın şəkildə göstərilir ki, hər bir uşaq özünəməxsus ləyaqətə, bərabər və ayrılmaz hüquqlara malikdir və bu vəziyyət qorunur.

Bu qərarın qəbul edilməsindən 40 ilə yaxın vaxt keçməsinə baxmayaraq, 1982-ci ildən bəri çox şeyin dəyişmədiyini görmək kədərlidir. Dünyanın bir çox yerlərində hələ də müharibələr davam edir və bu müharibələrdən ən çox uşaqlar əziyyət çəkir. Hər gün televiziyalarda, qəzetlərdə gördüyümüz, oxuduğumuz xəbərlərdə bu proseslərin qurbanı olan minlərlə uşaq görürük.

BMT-nin Uşaq Fondunun (UNICEF) açıqladığı məlumatlara görə, 2019-cu ildə münaqişə və zorakılıq nəticəsində məcburi köçkün olan uşaqların sayı 19 milyon nəfərə çatıb ki, bu da indiyədək ən yüksək səviyyədir. UNICEF-in ”Öz ölkəsində itkin düşənlər” hesabatına əsasən, məcburi köçkün uşaqların ən primitiv haqlarına belə çıxışı yoxdur. Əksinə, onların böyük qisminin zorakılıq, istismar və insan alverinin qurbanı olmaq riski var. COVID-19 epidemiyası, habelə müharibələr səbəbi ilə evlərindən didərgin düşmüş uşaqların vəziyyətinin daha da pisləşdiyi bildirilən hesabatda uşaqların qeyri-sağlam şəraitdə yaşadığı bildirilir.



Bundan əlavə, Save the Children Fondunun ”Uşaqlara qarşı müharibəni dayandırın 2020” hesabatına əsasən, 2018-ci ildə 415 milyon uşaq münaqişə zonalarında yaşayır ki, bunun da 149 milyonu gərgin münaqişə zonalarındadır. Bu rəqəmə nəzər saldıqda, demək olar ki, hər altı uşaqdan birinin münaqişə zonasında yaşadığını görə bilərik. Bu vəziyyət həm də uşaqların müharibələrdə əsgər kimi istifadə edilməsinə şərait yaradır və uşaqların müharibənin hər sahəsində istismar edilməsi deməkdir.

Pedofillərin də ilk hədəfi çox vaxt yetim və kimsəsiz uşaqlar olur. Ümumdünya Səhiyyə Təşkilatının 2017-ci ildə apardığı araşdırmaya görə, dünyada uşaqların 23%-i fiziki, 18%-i qızlar, 8%-i oğlanlar, cəmi 26%-i cinsi, 36%-i isə emosional zorakılığa məruz qalır.

2019-cu ildə hazırlanan və 40 ölkəni əhatə edən araşdırmada uşaqlar üçün ən təhlükəsiz ölkələr 100 balla indeksləşdirilib. İlk 10-luqda ümumilikdə iqtisadi gəlirləri yüksək olan ölkələr bunlardır: İngiltərə (82,7), İsveç (81,5), Kanada (75,3), Avstraliya (74,9), ABŞ (73,7), Almaniya (73,1), Cənubi Koreya (71,6), İtaliya (69,7), Fransa (65,2) və Yaponiya (63,8).

Ümumdünya Səhiyyə Təşkilatının 2020-ci ildə paylaşdığı hesabata görə, həmin il 2-17 yaş arası təxminən 1 milyard uşaq, fiziki, cinsi və ya emosional zorakılığa məruz qalıb. ”World Vision” təşkilatının məlumatına görə, dünyada hər il 1 milyard 700 milyon uşağın zorakılığa məruz qalır. Dünyada hər 10 uşaqdan 6-sı valideynləri tərəfindən fiziki cəzalandırılır. Uşaqların 10 faizi fiziki cəzadan qanunla qorunmur. Aşkar edilmiş insan alveri hallarında 28 faiz qurban uşaqlar olur. Dünyada 50 milyona yaxın uşaq məcburi köçkün vəziyyətindədir. Hər il 15 yaşa qədər 41 min uşaq məişət qətli nəticəsində dünyasını dəyişir.

Təəssüf ki, texnologiyanın ən inkişaf etdiyi bu günlərdə hələ də müharibələrin getdiyi, uşaqların hər mənada istismar edildiyi bir dünyanın inkişaf etdiyini söyləmək mümkün deyil. Ancaq uşaqların qorunması, müdafiəsi günlərində yada düşən problemlər elə yazdığımız yazılarda, müzakirə edilən dəyirmi masalarda, təşkil edilən seminar və təlimlərdə qalır. Müharibə, aclıq, səfalət olan ölkələrdə yaşanan ağrıların və davam edən problemlərin illərdir heç dəyişmədiyini görmək kədərlidir. Bu sahədə həll yolları axtaran qurumlara dəstək olmaq, maarifləndirmək hər bir insanın əsas vəzifəsi olmalıdır.









**_Lalə Mehralı_**

SON SƏHİFƏ

# SƏS

4 iyul
2023-cü il

## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

# Taxıl asılılığını necə aradan qaldırmaq olar?

*İQTİSADÇI DANIŞDI*

"Azərbaycan daxili tələbatını ödəmək üçün 40% taxılı xaricidən, əsas da Rusiya və Qazaxıstandan alır. Dövlət Statistikasının 2019, 2020, 2021-ci il üçün olan məlumatlara əsasən, taxılın ümumi yığım və məhsuldarlıq bütün təsərrüfat kateqoriyaları üzrə cəmi 2019-cu il üzrə 3451,6 ton, 2020-ci il üzrə 3172,3, ton, 2021-ci il üzrə 3275,6 tondur. Məhsuldarlıq 2019-cu il üzrə 31.3 sent/ha, 2020-ci il üzrə 30.9 sent/ha, 2021-ci il üzrə 31.9 sent/ha olub. Göründüyü kimi göstəricilərdə qeyri-bərabərlik var. 2022-ci ildə Ukrayna - Rusiya müharibəsi nəticəsində taxılın qiyməti iki dəfə qalxdı və bu özünü unun, çörəyin, makaronun qiymətində göstərdi". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Rauf Qarayev deyib.





Onun sözlərinə görə, Rusiyanın daimi taxıl sazişində əldə olunmuş razılaşmada Qərbi şantaj etməsi artıq bizim üçün həyəcan təbilinin çalınması deməkdir: "Sabah bu asılılıq bizim üçün də baş ağrısı ola bilər. Bu baxımdan ölkədə bir sıra qərarlar qəbul olunub. Un və çörək ƏDV-dən azad olunub. Ölkəyə gətirilən taxılın həcmi artırılıb. Daxili istehsalçıya dövlət dəstəyinin artırılması qərara alınıb. Hər ton taxıla 100 manat subsidiyanın verilməsi, aqroparkların sayının çoxaldılması buna bariz nümunədir".

İqtisadçı sözlərinə davam edərək bildirib ki, Qarabağ- Şərqi Zəngəzur iqtisadi rayonunda kənd təsərrüfatı üçün 1 milyon hektar yararlı torpaqlar var: "Bu torpaqlardan geniş istifadə nəzərdə tutulub. Aqrar Sığorta Fondu tərəfindən kənd təsərrüfatı üçün yararlı 400 min hektar ərazi sığortalanıb. 2025-ci ilə kimi İsrail dövləti ilə anlaşma nəticəsində ən müasir texnologiya sahəsində ölkədə taxıl istehsalının genişləndirilməsi və bu taxılın İsrail bazarına çıxarılması nəzərdə tutulub. Son 2 il qalıb. Bu iki il ərzində qoyulan tapşırıqlar yerinə yetirilsə və ərazilər tam minalardan təmizlənsə artıq ola bilər ki, Azərbaycanın taxıl asılılığı aradan qaldırılacaq. Amma məsələ burasındadır ki, taxıl əkinində korrupsiya halı da mövcuddur. Hərdən mətbuatda eşidirik ki, subsidiya almaq üçün bəzi şəxslər sənədlərdə ərazilərində başqa məhsul əkə-əkə orada taxıl qeyd olunur. Müddət qısa olsa da, qeyd olunanlarda ən azı 20% asılılığı aradan qaldırsaq, bunun özünü də müsbət hal kimi dəyərləndirmək olar"

**L. Əlizadə**

## Ərəblərdən Neymara FANTASTİK TƏKLİF: 600 milyon avro!

Ərəblərin ulduz futbolçuları "ovlamaq" siyasəti dayanmır. Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubu indi də PSJ-nin hücumçusu Neymarı heyətində görmək istəyir. Fransa mətbuatının yazdığına görə,ərəb klubu 31 yaşlı braziliyalıya 3 illik müqavilə üçün 600 milyon avro maaş təklif edirlər. Xatırladaq ki, Neymarın PSJ ilə müqaviləsi 2025-ci ilin yayına qədərdir.



# Keyfiyyətli dondurmanı seçərkən diqqətli olaq!

*AYDINLIQ GƏTİRİLDİ*

"Dondurmanın keyfiyyəti onun istehsalat prosesindən başlanır. Bunun üçün də avadanlıqların iş bitdikdən sonra təmizlənməsi, dezinfeksiya olunması əsas şərtlərdir. Çünki dondurma riskli qidalar qrupuna daxildir. Keyfiyyətli dondurma deformasiyaya uğramamış olanlardır". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib.

Onun sözlərinə görə, çox vaxt generator təchizatı olmayan marketlərdə işıqlar söndükdə və ya dərin dondurucuda silkulyasiya getmədikdə dondurmalar əriyir: "Bu da bağırsaq çöplərinin meydana gəlməsi və müəyyən bakteriyaların çoxalması nəticəsində qida zəhərlənməsinə gətirib çıxarır. Ona görə də qida zəncirində yəni, daşınmasında, saxlanmasında və digər proseslərdə problemlərin ortaya çıxmaması üçün bunu təqib etmək lazımdır. Dondurmanı istehsal edən şirkət maraqlanmalıdır ki, məhsulu hansı şəraitdə saxlanılır. Yeri gəldikdə şirkət marketləri dondurucu ilə təmin etməlidir.

İstehlakçılar dondurma alarkən onun əriyib yenidən donmuş olmamasına diqqət yetirməlidir. Qablaşdırılmasında hər hansı bir sıxılma olmamalıdır və son istifadə tarixinə mütləq nəzarət olunmalıdır. Bundan əlavə ucuz dondurmaya üstünlük verməməklərini məsləhət görürəm. Çünki ucuz dondurmalarda müəyyən sıxılmalar ola bilər".

**Ləman**

# Balıq ovu qadağan olundu?

"Bildiyimiz kimi, verilən qərarla may ayından başlayaraq sentyabrın 1-dək balıq ovlamaq qadağan edilib. Lakin bu qərar sənaye üsulu ilə balıq tutan balıqçılara aiddir. Qaldı ki, həvəskar balıqçılara, onların balıq ovlaması may ayının 1-dən iyul ayının 1-nə qədərdir. Yəni, dünən yox o biri gün bu vaxt bitdi". Bu sözləri SİA-ya açıqlamasında Dünya Üzgüçülük Konfederasiyasının üzvü, "Qızıl pəri" mükafatı laureatı, Azərbaycanın fəxri ovçusu, çöl adamı Kamal Dəniz deyib.

Onun sözlərinə görə, həvəskar balıqçılar istənilən su hövzəsində balıq ovlaya bilərlər: "Qadağan olunmuş qoruqlar var ki, burada balıq ovlamaq olmaz. Amma Xəzər dənizində, Şəmkir su anbarında, Araz çayında, Kür çayında, Mingəçevir su anbarında və s. tilovla balıq ovlaya bilərlər. Amma torla balıq ovunun qadağası sentyabr ayının 1-dək qüvvədədir. Hətta dünənləri Azərbaycanda həvəskar balıqçılara aid olan qadağa götürüldü.



İlk dəfə olaraq Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Odlar yurdu" adlı Beynəlxalq Surfkastinq Turniri keçirildi. Bütün bunlar Azərbaycanda mədəni balıqçılığın inkişafına kömək edir. Balıq ovu hər il may ayının 1-dən sentyabr ayının 1-nə kimi qadağan olunur. Bu qadağa balıqların kürü tökmək dövrünə əsaslanır. Bu qanun öncədən də var idi.

Şimal ölkələri ilə Azərbaycanda vəziyyət biraz fərqlidir. Orada balıqlar fərqli vaxtlarda kürü tökür. Azərbaycanda da bu başqa vaxtdadır. Belə ki, əsasən Azərbaycanda balıqlar kürünü may ayına kimi töküb qutarır. Sentyabr ayında isə ancaq Kütüm balığı kürü tökür. Yəqin ki, bu qanuna yenidən baxılar. Təbiəti ən çox sevən əsl balıqçılardır. Çünki qadağan olunmuş dövrlərdə onlar qadağan olunmuş ləvazimatlarla bağlıq ovlaya bilmirlər. Qanundan kənar hərəkət edənlər isə əsl ovçular deyil".

**Ayşən Vəli**

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000